

Milli azadlıqdan şirin nemət yoxdur!




## Mehriban Əliyeva: Xoşbəxtəm ki...

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Birinci xanım Mehriban Əliyeva ailə, dəyərlər və xoşbəxtlik haqqında danışarkən deyib: Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir!.**




Heydər Əliyevin nurlu, xoş xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Xatirimizdədir, sevgi ilə anırıq.


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 may 2024-cü il, şənbə
№ 083 (6669)
Qiyməti 60 qəpik


# Şuşanın yeni tarixi başlayır...



## İlham Əliyev: Burada söz sahibi bizik! Qafqazda aparıcı dövlət bizik! Bizimlə hər kəs hesablaşmalıdır!

Bax səh. 3



## Ehtiramla anırıq!

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər**

Bax səh. 2

# Müstəqil və bütöv Azərbaycan Heydər Əliyev siyasi irsinin təntənəsidir

Bax səh. 4

## “Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti”

Mayın 10-da Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti” mövzusunda tədbir keçirilib.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib. Tahir Budaqov qeyd edib ki, müasir dövlətçilik tariximizin taleyüklü məqamları və ən böyük uğurları, heç şübhəsiz, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır: “Müdrik dövlət xadimi fəaliyyətinin bütün mərhələlərində milli maraqların qorunmasına, mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görmüş və Azərbaycanın tərəqqisini təmin etmişdir. SSRİ dövründə Heydər Əliyevin respublikamıza rəhbərliyi zamanı görülən işlər ölkəmizin hərtərəfli inkişafının əsasını qoymuş, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır. Ümummilli Liderimizin Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi fəaliyyəti də müasir dövlətçilik tariximizin ən mühüm səhifələrindəndir. O, həmin dövrdə blokada şəraitində olan muxtar respublikanı ağır sosial-iqtisadi vəziyyətdən xilas edərək dirçəlişinə nail olmuş, müstəqillik ideyası əsasında gələcək milli inkişafın siyasi-ideoloji təməllərini formalaşdırmışdır. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər isə Azərbaycanın ən yeni tarixinə müstəqil...




Bax səh. 5-6

## Almatı görüşü - sülh çağırışları, kommunikasiyalarla bağlı bəyanatlar...

Cənubi Qafqazda sülhün əldə olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində illərdir davam edən proses mühüm bir mərhələyə qədəm qoyub. Dünən Almatıda xarici işlər nazirləri səviyyəsində baş tutan görüş bir sıra mühüm məqamlarla yadda qaldı. Məsələnin danışıqlar, beynəlxalq hüquq və ədalət prisnpiləri üzrə həllini hər zaman prioritet elan etmiş Azərbaycan sülh prosesinə sadiqlik nümayiş etdirib. İki ildən artıq idi ki, fərqli müstəvilərdə, vasitəçilərin iştirakı ilə keçirilən görüşlər isə mühüm nəticələrə yol açmırdı - xüsusilə, Ermənistanın bəzi addımları konstruktiv yekuna addımlamağa imkan vermirdi. Azərbaycan isə məsələlərin həlli ilə bağlı ikitərəfli görüşlərin neytral zonalarda - hər iki ölkə üçün uyğun sayılan məkanlarda keçirilməsinə hər zaman tərəfdar olub. Bizim üçün əsas məsələ müdaxilə edilmədən iki tərəfin münasibətlərinin müəyyənləşməsi istiqamətində uğurların əldə edilməsidir. Almatıda keçirilən görüş ilk növbədə bu məqamına görə seçilir - Almatı yeni dönəmdə Ermənistan ilə Azərbaycan arasında müzakirə platformasına çevrilməsi imkanları ötən ayın ortalarında Qazaxıstan Prezidenti Kasım - Jomart Tokayevin İrəvana səfəri zamanı müzakirə predmeti olmuşdu. Qazaxıstan Prezidentinin Astananın İrəvan və Bakının sülh müqaviləsi bağlamaq istəyini alqışlamasını önə çəkməsi, xoşməramlılıq missiyasını üzərinə götürərək danışıqlar üçün platforma təqdim etməyə hazır olduğunu bildirməsi isə bu fikirləri daha da qətiləşdirmişdi. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla sülh danışıqlarına dəstək üçün Qazaxıstan tərəfinə təşəkkür edib. O, bu barədə özünün “X” hesabında yazıb. “Azərbaycan-Ermənistan arasında Almatıda ikitərəfli sülh...

Bax səh. 7

## İkitərəfli və çoxtərəfli əməkdaşlıq platforması...

Azərbaycan və Bolqarıstan arasında mehriban və dostluq münasibətləri son illərdə daha da genişlənərək əsil starteji tərəfdaşlığa yüksəlib. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri əlaələrin ruhunu və dinamikasını daha da möhkəmləndirib, yeni imkanlara yoil açıb. Bakıda olan Bolqarıstan Prezidenti Rumen Radevin bəyan etdiyi kimi iki ölkə arasında qətiyyətli iqtisadi iradə və konkretləşmiş istiqamətlərin hər biri üzrə fəal addımların atılması iqtisadi hərarəti artırıb, iqtisadi perspeltivlərin hərəkətliliyini daha da sürətləndirib. Bolqarıstanda Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən “Həmrəylik Halqası” layihəsi də məhz bu iqtisadi həmrəyliyin simvolu kimi xarakterizə oluna bilər.

Bolqarıstan ilk növbədə, Azərbaycanın yanacaq nəqlində əsas tərəfdaşlarından biridir. Cənubi Qaz Dəhlizində yer almış və hazırda Avropa İttifaqının (Aİ) genişlənən yanacaq tədarükündə ilk sırada qərarlaşıb. Azərbaycanın enerji siyasətinin səmərəliliyini xüsusi dəyərləndirən rəsmi Sofiya öz enerji təhülkıəsizliyinin bir bir hissəsini məhz Azərbaycan etibar edir. TAP istifadəyə verildikdən sonra əsas alıcılardan biri kimi Bolqarıstan Azərbaycandan daha çox yanacaq nəqli üçün təşəbbüsləri artrırdı və hazırda bu ölkəyə qaz nəqlinin həcmi 1 milyard 250 milyon kubmetr təşkil edir. 2022-ci ildə bu rəqəm cəmi 600 milyon kubmetr idi. 2024-cü ilin sonunda isə 1,5 milyard kubmetr nəzərdə tutulur. Ancaq bu da Bolqarıstan üçün yetrəli deyil və Azərbaycan qazının daha çox idxalına üstünılük verilir.Cənab Radevin vurğuladığı kimi ölkəsi yanacaq təminatının təqribən 50 faizini Azərbaycan hesabına bağlasa da bu rəqəmi 70 faizə qədər artırmaqda israrlıdır. Bu da yuxarıda da vurğuladığımız kimi Azərbaycanın enerji siyasətində əsil tərəfdaş və dostluq, humanizm mövqeyinə görədir.

Azərbaycan Panavropa qaz təchizatçısı kimi fəaliyyətini Avropa məkanında genişləndirir və enerji təhlükəsizliyi...

Bax səh. 7

## Fransızların inamı ölüb...

Avropa kontingentinin “dünya hegemoniyası” traktatının reallaşması üçün tramplin rolunu oynamış I Sənaye İnqilabından ötən üç əsr “köhnə qitə”ni həm də “arzuların ünvanı” kimi səciyyələndirmişdi. Son 300 ildə əksəriyyət Avropaya “təhlükəsizlik, rahatlıq və zənginlik” dəyərləndirməsi ilə yanaşırdı. Hətta bir neçə il öncəyə qədər dünyanın əksər regionlarında aparılan sorğularda ən təhlükəsiz bölgə kimi Avropa, xüsusilə Qərbi Avropa dəyərləndirilirdi ki, bu ünvanın yaşam şərtləri olduqca cəlbedici görünürdü. İkinci, hətta üçüncü dərəcəli sayılan ölkələrdən Avropaya axının səbəbləri sadalanarkən də bu amil xüsusilə qabardılırdı - Avropa rahatlığı, Avropa etimadı, Avropa “hüquq proyeksiyası”. Bu “rahatlığın” bir səbəbi sosial rifahın yüksəkliyi idisə, digər səbəb kimi “qoca qitə”nin insan hüquq və azadlıqlarının “təşəkkül nöqtəsi” sayılması idi. Belə bir təsəvvür vardı - bu qitədə hər şey beynəlxalq hüquqa əsaslanır və hər kəs xoşbəxtdir.

Amma əsl reallıq tamam fərqli ştrixlərə söykənən mənzərədə özünə yer tapır. Başqa sözlə, Avropa heç də “arzuların qitəsi” deyil - xüsusilə, bu qitədə yaşayan insanların qarşılıqlı olaraq etimad mühiti ən aşağı səviyyədədir. Avropanı özündə birləşdirən beynəlxalq statuslu təsisatların ikili standartlara əsaslanan qərar və fikirləri, addımları, yanaşmaları sadə insanlarda inamsızlığın get-gedə artması üçün stimula çevrilir. Xüsusilə, Avropa İttifaqı adlanan “birliyin” xidmət etdiyi korporativ maraqların konturları bəlli olduqca hər kəsin fikri dəyişir - təsadüfi deyil ki, hətta Aİ-nin fərqli strukturlarında təmsil olunan parlamentarilər, Aİ üzvü olan dövlətlərin siyasi rəhbərləri qurumun ikili standarta əsaslanan siyasi xəttini ifşa edir, bu qurumda baş alıb gedən korrupsiya faktlarını, qeyri-hüquqi əsaslı qərarların alınması presedentlərini, maliyyə maxanasiyalarını konkret sənədlərlə və misallarla üzə çıxarırlar. Bu isə, Avropa insanının ilk növbədə yaşadığı ölkənin rəhbərlərinin Aİ-yə “əsas idarəedici funksioner” kimi baxdığı üçün inamını öldürür, eyni zamanda, qurumun demokratik təsisat olaraq onun...

Bax səh. 7

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər






Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günüdür.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin Fəxri xiyabanda məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini yad edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik

Ölkəmizin mədəniyyət ictimaiyyəti Heydər Əliyev Fondunun yaradılmasının 20 illik yubileyi münasibətilə Fondun rəhbəri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təbrik müraciəti ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən məlumat verilib.

Təbrikdə qeyd olunur ki, müasir müstəqil Azərbaycanın qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini əziz tutaraq adının əbədiləşdirilməsi, onun dövlətçilik ideyalarının gələcək nəsillərə ötürülməsi, zəngin irsinin təbliğ edilməsi məqsədilə yaradılan Heydər Əliyev Fondu ölkəmizin milli-mənəvi və mədəni dəyərlərinin dünyada tanıdılması istiqamətində yorulmadan fəaliyyət göstərir.

Heydər Əliyev Fondu yarandığı gündən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu dövlət siyasətində yaxından iştirak edərək Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətinin inkişafı, milli-mənəvi dəyərlərin, multikultural ənənələrin qorunması və onların həm ölkə daxilində, həm də beynəlxalq aləmdə təşviqində mühüm rol oynayır. Bu siyasətin ən mühüm istiqamətlərindən olan işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılmasında, müasir sosial-mədəni infrastrukturun qurulmasında, Azərbaycan mədəni irsinin ümumbəşəri dəyərlər qismində tanınmasında Fondun verdiyi töhfələr əvəzsizdir.




"Reallaşdırdığınız və dəstək olduğunuz yerli və beynəlxalq layihələr Azərbaycan mədəniyyətinin, tarixinin və dövlətçiliyinin bünövrələrini, xalqımızın özünə və ali dəyərlərə inamını möhkəmləndirir, mədəniyyətimizi hamı üçün əlçatan və doğma edir. Heydər Əliyev Fondunun Azərbaycanda və onun hüdudlarından kənarda müxtəlif maddi-mədəniyyət abidələrinin qorunması, bərpası və yenidən qurulması istiqamətində, eləcə də beynəlxalq mədəniyyət mübadiləsindəki misilsiz xidmətləri mədəniyyət ictimaiyyəti və xalqımız tərəfindən yüksək dəyərləndirilir", - deyə təbrikdə vurğulanır.

# Prezident Füzulidə...

## Köndələnçay su anbarları kompleksinin açılışı mərasimində...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Füzuli rayonu ərazisində, Köndələnçay çayının məcrasında tikilmiş ümumi su tutumu 3,9 milyon kubmetr (faydalı həcmi 3,6 milyon kubmetr), hündürlüyü 14 metr olan Köndələnçay-1 su anbarı 1962-ci ildə istismara verilib. İşğaldan azad olunmuş ərazilərdə kompleks meliorasiya-irriqasiya tədbirləri çərçivəsində su anbarında müvafiq təmir-bərpa işləri həyata keçirilib. Bundan məqsəd bəndin qurğularının və mexaniki avadanlıqlarının sabit iş rejiminə gətirilməsi və bundan sonrakı istismarı üçün normal vəziyyətinin yaradılmasıdır.

Layihəyə torpaq bəndin yuxarı byefində dağıdılmış bermanın və bütün bənd boyu beton üzlüyün, qülləli suburaxıcı-sutullayıcının estakadasının və çıxış hissəsinin, eni 6 metr, uzunluğu 283 metr olan səthi sutullayıcının yenidən bərpası, birmərtəbəli gözətçi evinin və çirkab su quyusunun tikintisi, xarici elektrik təchizatının təmin edilməsi və su anbarı ərazisində abadlıq və yaşıllaşdırma işlərinin görülməsi daxildir.

Burada daş örtüklü torpaq bəndin yuxarı byefində çökmüş daş örtüyü bərpa olunub, drenaj sistemi və nəzarət ölçü cihazları quraşdırılıb, qülləli suburaxıcının yükdaşıyan elementlərinin dəmir-beton konstruksiyaları, dib borusunun bütün mexaniki və qaldırıcı avadanlıqları, qurğunun estakadası metal və beton konstruksiyaları, eni 6 metr uzunluğu 780 metr olan səthi sutullayıcının bütün beton konstruksiyaları, binanın, mexaniki və hidromexaniki avadanlıqları yenidən qurulub, yarımstansiya və elektrik xətti bərpa olunub, Quruçay üzərində suqəbuledici qurğu tikilib. Quruçaydan gələn sular su anbarına yönəldiləcək.

Dövlətimizin başçısı Köndələnçay su anbarları kompleksini işə saldı.

## Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda görülən işlərlə tanışlıq, birinci tunelin açılışında...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda aparılan işlərlə tanış olub, bu yolda inşa edilmiş birinci tunelin açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yeni yol 19,3 kilometr qısadır. Birinci texniki dərəcəli yolun 4-6 hərəkət zolağı var. Yol boyu müxtəlif diametrli 194 suötürücü boru, 38 yeraltı keçid, 11 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 1557 metr, viadukların uzunluğu 1965 metr, tunellərin ümumi uzunluğu isə bir istiqamət üzrə 6450 metrə yaxındır.

Diqqətə çatdırıldı ki, yolun tikintisi layihəsi üzrə nəzərdə tutulmuş və ümumi uzunluqları (sağ və sol istiqamət) 12,7 kilometr təşkil edən 7 avtomobil tunelindən 6-sında qazma işləri artıq yekunlaşıb. Hazırda tuneldaxili işlər həyata keçirilir. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirir.

Sonra dövlətimizin başçısı ümumi uzunluğu 6747 metr olan birinci tunelin açılışını etdi.

Prezident İlham Əliyev işçilərlə birgə foto çəkdirdi.

Daha sonra Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda dördüncü tunelin giriş və çıxış hissəsinə baxış keçirildi.

Məlumat verildi ki, yolun 73,7-ci kilometrliyindəki tunelin sol hissəsi 679,8 metr, sağ hissəsi isə 680,6 metrdir. Tuneldə qazma işləri başa çatdırılıb. Hazırda daxili işlər görülür.

# Prezident və birinci xanım Şuşada...

## Üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində

Prezident İlham Əliyev Şuşada üçüncü yaşayış kompleksinin təməlini qoydu.



Mayın 10-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək üçüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Şuşa rayonunda Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, Şuşa şəhərində üçüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 17 yaşayış binasının inşası nəzərdə tutulub. Kompleks ümumilikdə 487 mənzildən ibarət olacaq. Hazırda binanın layihələndirmə işləri başa çatdırılıb. Tikinti işlərinə bu ilin yayında başlanılması planlaşdırılır.

## Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanışlıq



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Çöl Qala məscidində aparılan bərpa işləri ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Heydər Əliyev Fondu Şuşada daha bir tarixi abidənin - Çöl Qala məscidinin bərpası layihəsini həyata keçirir. "PAŞA Holdinq"in dəstəyi ilə aparılan bərpa işlərinə 2023-cü ildən başlanılıb.

Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Məscid Şuşa şəhərinin yuxarı məhəllələrinə daxil olan Çöl Qala məhəlləsinin Qasım bəy Zakir küçəsində yerləşir. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa olunub. Məscid minarəsiz formada tikilib, Şuşa şəhərinin əksər məscidləri kimi düzbucaqlı, ümumi girişi isə asimmetrik şəkildə düzülmüş əsas fasaddan ibarət olub.

Çöl Qala məscidinin interyeri tamamilə İslam memarlığına uyğundur. Məscidin daxili hissəsi səkkizguşəli dörd daş sütunla bəzədilib. Bu sütunlar ümumi ibadət zalını üç hissəyə ayırır. Məscidin mehrabı ilə üzbəüz ümumi ibadət zalının içərisində qadınlar üçün açıq ibadət zalı tikilib.

Məscid Şuşa şəhərinin işğalından sonra ermənilər tərəfindən dağıdılıb və talan edilib.

Çöl Qala məscidinin yaxınlığında isə XIX əsrə aid Çöl Qala bulağı yerləşir. Bulağın divarları dördbucaq formasında olub və yaxınlığında yerləşən məscidlərin üslubunda tikilib. İşğal dövründə bulaq da dağıdılıb, daş kitabələri məhv edilib.

## Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan bərpa işləri ilə tanışlıq



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Üzeyir Hacıbəylinin ev-muzeyində aparılan bərpa işləri ilə tanış olublar.

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Heydər Əliyev Fondu Şuşa şəhərində Üzeyir Hacıbəylinin ev-muzeyində bərpa işlərini davam etdirir. Üzeyir Hacıbəylinin evi Şuşada XIX əsrdə inşa olunub. Bina 1959-cu ildə ev-muzeyi kimi

davamı 3-cü səhifədə

# Prezident və birinci xanım Şuşada...







əvvəli 2-ci səhifədə

fəaliyyətə başlayıb. Görkəmli bəstəkar, peşəkar musiqi sənətimizin və milli operamızın banisi Üzeyir Hacıbəylinin ev-muzeyi Şuşa şəhəri işğal edilən tarixədək fəaliyyət göstərib. Muzeydə dahi bəstəkarın həyat və yaradıcılığı ilə bağlı 1700 eksponatdan erməni işğalçı qüvvələrinin vəhşiliyi nəticəsində yalnız 136-sı salamat qalıb, digərləri məhv edilib.

Məlumat verildi ki, binadakı bərpa işlərinə evin ilkin görünüşünə uyğun olaraq analizlərin hazırlanması, bünövrələrin möhkəmləndirilməsi, döşəmənin, fasadların və dam örtüyünün bərpası, daxili və xarici bəzək işləri, qapıların, pəncərələrin, mühəndis-kommunikasiya sistemlərinin quraşdırılması, həmçinin həyətyanı sahənin yaşıllaşdırılması işləri daxildir. Bu günədək bərpa layihəsinin hazırlanması, ərazidə mövcud divar daşlarının sökülərək, ölçülərinə görə inventarlaşdırılması, dağılmış hissələrdə bünövrələrin qazılması və sahənin ümumi təmizlənməsi işləri aparılıb. Həmçinin material analizi üzrə nümunələr götürülərək Türkiyədəki laboratoriyada tədqiq edilib, konservasiya və restavrasiya hesabatları yerinə yetirilib. Muzeyin memarlıq, konstruksiya həlli və mühəndis-kommunikasiya sistemləri üzrə işçi layihələri yekunlaşıb, bünövrənin armaturlanması icra olunub. Ev-muzeyinin daxilində divarlar və arakəsmələr hörülüb, döşəmənin bərpası işləri görülüb. Həmçinin həyətyanı sahədə tarixi görkəmə uyğun hörgü işləri və dekorativ elementlərin qoyulması başa çatdırılıb. 2022-ci ildə başlanan bərpa işləri yekunlaşandan sonra muzeydə ekspozisiya qurulacaq.

***

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada “Şirin su” hamamınbərpadan sonra açılışında, Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə tanış olublar və Mamayı məscidinin bərpadan sonra açılışında iştirak ediblər.

Prezident İlham Əliyev Xankəndi-Şuşa-Laçın avtomobil yolunda görülən işlərlə tanış olub, Şuşa rayonunun Turşsu qəsəbəsinin təməlini qoyub.

Dövlətimizin başçısı Laçın rayonunun Sus kəndində görülmüş işlərlə tanış olub, kəndə köçmüş sakinlərlə görüşüb, “AzərEnerji” ASC-nin “Zabux” və “Qarıqışlaq” Kiçik Su Elektrik stansiyalarının açılışlarında iştirak edib.

**(Şuşa və Laçında keçirilən tədbirlər barəsində qəzetimizin növbəti sayında tanış ola bilərsiniz)**

# Şuşanın yeni tarixi başlayır...

**İlham Əliyev: Burada söz sahibi bizik!**

**Qafqazda aparıcı dövlət bizik! Bizimlə hər kəs hesablaşmalıdır!**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər.

Dövlətimizin başçısına və birinci xanıma kompleksdə görülən işlər barədə məlumat verilib.

Bildirildi ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Kompleksin təməli 2021-ci il avqustun 29-da qoyulub. Yaşayış kompleksi 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı və 7-si beşotaqlı olan 450 mənzildən ibarətdir.

Sonra dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində və mənzillərdə yaradılan şəraitlə tanış olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya ilk köç edən ailələrlə görüşüblər.

## Bu gün biz dirçəldilən Şuşanı görürük




Görüşdə çıxış edən dövlətimizin başçısı bu gözəl tarixi hadisə münasibətilə şuşalıları təbrik edib: “Şuşaya xoş gəlmisiniz. Siz otuz iki il vətən həsrəti ilə yaşamısınız, amma bilirəm ki, bir an da Şuşanı unutmamısınız, bilirdiniz və inanırdınız ki, siz buraya qayıdacaqsınız. Mən də bilirdim, mən də inanırdım və Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim”. Prezident bu illər ərzində ölkəmizin gücləndirilən iqtisadiyyatından, ordu quruculuğumuzdan söz açıb və 44 gün ərzində öz sinələrini qabağa verərək torpaqlarımızı azad edən fiziki güclü, mənəviyyatı sağlam gənc nəslin forlaşdırıldığını vurğulayıb: “Bugünkü günə görə biz onlara borcluyuq, şanlı Ordumuza borcluyuq, Silahlı Qüvvələrimizə borcluyuq, şəhidlərimizə, qazilərimizə borcluyuq. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.





Uzun illər bu məsələnin danışıqlar yolu ilə həll olunması üçün çalışdığını söyləyən dözvlətimizin başçısı aparılan danışıqların və görüşlərin əhəmiyyətsiz qaldığını xatırladıb. O bildirib ki, Ermənistan bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdi və onların arxasında duran, guya ki, vasitəçilik edən ölkələr isə bu işğalı əbədi etmək istəyirdilər.

Müharibə zamanı bir çox xarici media nümayəndələrinə müsahibələri zamanı Şuşa haqqında Ona verilən suala cavabını xatırladan Prezident İlham Əliyev deyib: “Şuşasız bizim işimiz yarımçıq qalacaq və hesab edirəm hər kəs anladı ki, Şuşa azad olunmadan biz dayanmayacağıq. Şuşa bizim əyilməz ruhumuzun rəmzidir. Şuşa hər bir Azərbaycan vətəndaşının qəlbində elə bir böyük iz buraxıb ki, Şuşasız müharibənin uğurla başa çatması mümkün deyildi”.

Dövlətimizin başçısı antiterror əməliyyatı və öz dövlət süverenliyimizin tam bərpa edilməsindən söz açaraq bildirib ki, biz tarixi, əzəli torpaqlarımızı işğalçılardan azad etdik, bir daha dövlətimizin gücünü göstərdik, güclü siyasi iradəsini göstərdik. Heç kimlə hesablaşmadan, heç nəyə baxmadan, heç kimdən qorxmadan lazım olan əməliyyatı böyük peşəkarlıqla, məharətlə və fədakarlıqla keçirdik.

“Bu gün isə Şuşanın yeni tarixi başlayır. Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax, bu gün biz dirçəldilən Şuşanı görürük. Təkcə bu gözəl binalar deyil, Şuşada çox genişmiqyaslı quruculuq işləri gedir. Bu gün Ulu Öndərin doğum günündə üçüncü yaşayış kompleksinin təməli qoyuldu. Keçən il mayın 10-da ikinci yaşayış kompleksinin təməli qoyulmuşdur. Bu birinci yaşayış kompleksində 450, ikincidə 300-ə yaxın, üçüncüdə isə 500-ə yaxın mənzil inşa ediləcək. Onun bir hissəsi artıq hazırdır. Bu gün siz bu mənzillərə köçəcəksiniz. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir. Şərait çox gözəldir və əminəm ki, uzun fasilədən sonra şuşalılar burada rahat yaşayacaqlar, yaradacaqlar, quracaqlar, öz doğma şəhərinin tarixi simasını qoruyacaqlar” -deyən Prezident Şuşada aparılan quruculuq işləri haqqında məlumat verib.

Dövlətimizin başçısı bəyan edib ki, Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - hər bir azərbaycanlı bununla fəxr edəcək. Azad edilmiş bütün torpaqlarda genişmiqyaslı proqramların icra edildiyini söyləyən

İlham Əliyev bildirib ki, bu gün artıq Şuşa altıncı yaşayış yeridir ki, keçmiş köçkünlər buraya qayıdır: “Bu gün, eyni zamanda, Laçının Sus kəndinə də keçmiş köçkünlərin qayıdışı nəzərdə tutulur və ilin sonuna qədər ən azı 20 yaşayış məntəqəsində artıq həyat bərpa ediləcək”.

## Onun ən böyük arzusu bu reallıqları görmək idi...

“Mayın 10-u hər birimiz üçün, təbii ki, mənim üçün əziz gündür - Ulu Öndərin doğum günüdür. Onun ən böyük arzusu bu reallıqları görmək idi, işğala son qoymaq idi və məhz onun fəaliyyəti nəticəsində biz inkişaf yoluna qədəm qoyduq” - deyən dövlətimizin başçısı torpaqlarımızın işğal olunmasına səbəb olan hadisələri xatırladıb. Hakimiyyətsizlik, özbaşınalıq, xaos, hakimiyyət uğrunda gedən mübarizə, hakimiyyətdə səriştəsiz, qorxaq, satqın, xain insanların yerləşdirilməsi - bütün bunlar Şuşa kimi şəhərin, digər şəhər və kəndlərimizin işğal altına düşməsinin səbəbi olmuşdu: “Təsadüfi insanlar hakimiyyətə gəldi. Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi. Şuşanı müdafiə etməyə söz verən, əks təqdirdə öz başına güllə çaxmağa söz verən o ünsür görəsən indi hansı hisslər yaşayır? Əminəm ki, bu günə sevinmir”. O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün törtöküntülərinin əksəriyyətinin Zəfərimizə sevinmədiklərini, Qələbəmizə kölgə salmağa çalışdıqlarını, ermənilərlə əlbir olub Zəfərimizi aşağılamaq, ona kölgə salmağa çalışdıqlarını bildirən dövlətimizin başçısı vurğulayıb ki, məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü: “Şuşanı müdafiə etmək üçün çox da böyük qüvvə lazım deyildi. Siz ki, bunu yaxşı bilirsiniz. Şuşa yiyəsiz qalmışdı və Şuşanın düşmənə təhvil verilməsi Xalq Cəbhəsinə hakimiyyətə gəlmək üçün yol açdı. İndi baxın, o tarixlərə, tarixi hadisələrə. Bir neçə gündən sonra onlar hakimiyyətə gəldilər, o hakimiyyəti yıxdılar, çevriliş etdilər. Xalqın haqlı etirazını, necə deyərlər, öz tərəflərinə çəkmək üçün Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər. Bununla da keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanla de-fakto coğrafi nöqteyi-nəzərindən birləşdi.

Azərbaycan xalqının böyüklüyü bir daha 1993-cü ildə özünü göstərdi. Xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət etdi. Çünki Azərbaycan xalqı bilirdi ki, o bəladan onu ancaq Heydər Əliyev qurtara bilər. O vaxt - 1994-cü ildə əldə edilmiş atəşkəs məcburi bir addım idi və biz heç vaxt o atəşkəslə barışa bilməzdik, nə mənim atam, nə də mən. Onun ömrü bu günü görməyə çatmadı. Biz - onun davamçıları, onun və Azərbaycan xalqının arzularını çin etdik və tarixi Zəfər əldə etdik”.

## Bizimlə hesablaşmasalar, peşman olacaqlar

Bu gün bizim tələbimizlə Qazaxın dörd kəndinin qaytarıldığını söyləyən Prezident vurğulayıb ki, Qafqazda aparıcı dövlət Azərbaycandır: “Bir tələbimlə qaytarılır, bax, belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar”.

Azərbaycanın heç vaxt müharibə istəmədiyini önə çəkən dövlətimizin başçısı bildirib ki, bu gün də müharibə istəmirik, bizə torpaqlarımız lazım idi: “Minsk qrupunun 28 ildəki fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdir. Onların yalançı vədləri və fəaliyyətsizliyi təsadüfi deyildi. Onlar məsələni həll etmək istəmirdilər. Onlar bu torpaqları ermənilərə vəd vermişdilər. Necə ki, sovet dövründə ermənipərəst Qorbaçov və ondan sonra Yeltsin bu torpaqları ermənilərə vəd vermişdilər və Fransa da, Amerika da, həmçinin. Bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər əsas rol oynayırlar - Fransa və Amerika. Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil. Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Gəlir gəlsin, gəlmir, heç lazım da deyil. Guya onların gəlib-gəlməməsi ilə nəsə dəyişir, heç nə dəyişmir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Əgər bu gün yenə də görsək ki, Ermənistanda revanşistlər baş qaldırır, Fransa Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim incimәsin. Hər halda hər kəs bilir ki, biz nəyə qadirik, Ordumuz nəyə qadirdir və iradəmiz nə qədər möhkəmdir. Heç kim bizim qabağımızda dura bilməz. Heç kim bizə heç nə diktə edə bilməz və bizim daxili işlərimizə müdaxilə edə bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik. İkinci Qarabağ müharibəsindən sonra biz Ermənistana demişik ki, gəlin, sərhədi ədalətli müəyyən eləyək. Yox, istəmirsinizsə, onda biz deyəcəyik, harada istəyirik orada da sərhəd olacaq. Neyləyəcək, kimə zəng edəcək, lap 100 dəfə zəng etsin, nəticəsi nə olacaq? Həm Azərbaycan xalqına, həm də bu bölgəyə maraq göstərənlərə bir daha demək istəyirəm ki, bizimlə hesablaşmadan burada bir addım da atılmamalıdır bundan sonra. Əminəm ki, mənim sözümü eşidirlər, bilirlər mən nəyi deyirəmsə, onu da edirəm”.

## Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq!

Bugünkü bu bayram gününü ikiqat bayram olduğunu söyləyən dövlət başçımız bildirib ki, biz sülhsevər, biz qurub-yaradan xalqıq: “Ermənilər iŞuşanı viran qoyub, onu erməniləşdirməyə çalışıblar. Bu gün Aşağı Gövhər Ağa məscidinin təmiri ilə tanış olarkən orada içəridəki sütunların birində xaç gördüm. Yaxşı, məsciddə xaç ola bilər? Buna göz yumanlar, bu gün bizi hansısa cinayətlərdə, yaxud da ki, əməllərdə ittiham edənlər bunu görmürlərmi? Görmürlərmi ki, Ağdam məscidini tövləyə çevirmişdilər. Şuşanın 17 məscidindən 16-sını dağıdıb, birini isə başqa xalqa mənsub olan məscid kimi təqdim etməyə çalışırdılar. Biz buraya qayıdan kimi, dərhal guya orada aparılmış təmiri ləğv etdik, onu yenidən qurduq. Bütün şəhər və kəndlərimiz vandallar tərəfindən dağıdılıb. Bunu heç kim görmək istəmir. Amma hər kəs bunu görməlidir və görəcək. Çünki erməni vandallığını nə biz unudacağıq, nə də dünya unudacaq. Şuşanı nə qədər erməniləşdirməyə çalışsalar da, ona nail ola bilməyiblər. Çünki Şuşa əzəldən Azərbaycan şəhəri olub, işğal dövründə də öz azərbaycançılıq simasını qoruyub saxlayıb. Əgər ermənilər bunu özlərinə, necə deyərlər, doğma şəhər sayırdılarsa Şuşanı quraydılar, yaradaydılar, dağıtmayaydılar. Bir daş daş üstə qoyulmayıb. Biz gəlmişik burada əbədi yaşamağa və bundan sonra Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaq”.

***

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

Sakinlər Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıq etdilər.

# Müstəqil və bütöv Azərbaycan Heydər Əliyev siyasi irsinin təntənəsidir

Ulu Öndər Heydər Əliyev fərqli siyasi sistemlər şəraitində Azərbaycan xalqının dövlətçilik irsinin qorunub saxlanması, müstəqil dövlət ideyasının gerçəkləşməsi prosesində ölkəmizi mürəkkəb, olduqca təlatümlü mərhələlərdən fövqəladə siyasi uzaqgörənliyi ilə çıxararaq Ümummilli Lider səviyyəsinə yüksəlmiş tarixi şəxsiyyət və böyük dövlət xadimidir. İstər sovet, istərsə də müstəqillik dönəmində Azərbaycan xalqını təhdidlərdən qorumağı, dövlətçilik prinsiplərini sağlam təməllər üzərində möhkəmləndirməyi, Vətənin bütövlüyünü, xalqımızın milli-mənəvi dəyərlərini yaşatmağı həyatının əsas amalına çevirmiş Ulu Öndər öz şəxsiyyəti və mübarizə yolu ilə gələcək nəsilləri yeni qələbələrə ilhamlandıran nümunə yaratmışdır. Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur". Tam məsuliyyətlə deyə bilərik ki, hər bir vətənpərvər insanın yaddaşında əbədiləşmiş möhtəşəm obrazı, prinsiplərinə sadiqliyi və fədakar mübarizəsi ilə Heydər Əliyevin həyat yolu Azərbaycan xalqının mənəvi xəzinəsidir.

Böyük siyasi fəhmi və qətiyyəti ilə cəmiyyət üçün taleyüklü və həlledici anlarda liderlik missiyasını həyata keçirmiş tarixi şəxsiyyətlərin roluna müxtəlif zaman bucağından yanaşanda bəzən fərqli mülahizələr ortaya çıxır. Böyük şəxsiyyətlərin müba-hisələndirilməsi və ya tarixdə şəxsiyyətin roluna dair irəli sürülən müxtəlif mülahizələr daim müzakirə predmeti olmuşdur. Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinə məhz bu kontekstdən nəzər saldıqda, onun fəaliyyət göstərdiyi dövrün konyunkturasına sığmayan və öz xalqının inamlı gələcəyinə hesablanmış qətiyyətli siyasətinin alternativsizliyi heç vaxt mübahisə doğurmamışdır. Böyük şəxsiyyət çoxşaxəli, dinamik fəaliyyəti dövründə daim gələcəyə hesablanmış müzakirələrə, fərqli düşüncələrə açıq olmuş, onun özündən sonra miras qoyduğu zəngin siyasi irs hansı aspektdən yanaşılmasından, hansı metodika ilə tədqiq edilməsindən asılı olmayaraq, daim öz aktuallığını saxlamışdır. Heydər Əliyev irsi yalnız Azərbaycan xalqı üçün deyil, dünyada haqqın, ədalətin bərqərar olması, beynəlxalq hüququn prinsiplərinin qorunması uğrunda mübarizə aparan bütün xalqlar və liderlər üçün siyasi məktəbdir. Buna görə də yalnız milli bucaqdan deyil, həm də qlobal kontekstdə Ulu Öndərin əzəmətli obrazına nəzər saldıqda, onun mahiyyətini daha dərindən dərk etmək mümkündür.

Heydər Əliyevin 1969-cu ilin iyulundan başlayaraq Azərbaycana rəhbərlik etdiyi dövrdə əsası qoyulmuş milli inkişaf prosesi onun yorulmaz fəaliyyətinin, əzmkarlığının bəhrəsidir. Ulu Öndər ötən əsrin 70-80-ci illərini "coşqun inkişaf" dövrü kimi səciyyələndirərək həmin mərhələnin mahiyyətini olduqca düzgün ifadə etmişdir. Müstəqil Azərbaycanın əsaslı iqtisadi, habelə mənəvi bünövrəsinin möhkəmləndirildiyi həmin dövrdə Heydər Əliyevin hakimiyyəti illəri olmasaydı, indiki qüdrətli Azərbaycandan söhbət açmaq çətin, hətta mümkünsüz olardı. Sadəcə, təkzibolunmaz və artıq tarixin yaddaşına həkk olunmuş faktlara nəzər saldıqda müstəqil Azərbaycanın bünövrəsinin hansı mətin iradə və uzaqgörənliklə inşa edilməsi haqqında təsəvvürlərimiz bir daha aydınlaşır.

Ulu Öndərə qədər Azərbaycan keçmiş müttəfiq respublikalar arasında sosial-iqtisadi inkişafın bütün parametrləri baxımından geridə qalmış, aqrar təmayüllü, zəif kənd təsərrüfatı respublikası kimi tanınırdı. Uzun illər məsul vəzifələrdə çalışmış Heydər Əliyev həm mövcud vəziyyəti şərtləndirən səbəbləri dərindən bilir, həm də mümkün qədər qısa vaxtda əsaslı dönüş yaratmaq üçün yeni konseptual yanaşmanın, əsaslandırılmış inkişaf strategiyasının zəruriliyini görürdü. Respublikaya rəhbərliyinin ilk günlərində qarşıda duran vəzifələri və əsas hədəfləri açıqlayan Heydər Əliyev problemləri cəsarətlə dilə gətirməklə yanaşı, həm də sürətli və davamlı inkişafın yollarını açıq şəkildə bəyan edərək təkcə Azərbaycanın deyil, SSRİ kimi böyük bir dövlətin durğunlaşmaya doğru gedən monoton həyatına və idarəçilik sisteminə yenilik gətirdi. Azərbaycan qısa zamanda tikinti-quruculuq arenasına çevrildi, respublikada ilk dəfə ölkə əhəmiyyətli obyektlərin əsası qoyuldu, müasir sosial-iqtisadi infrastrukturun yaradılmasına başlanıldı, cəmiyyəti təhdid edən mənfi hallarla kəskin mübarizəyə start verildi. 1970-1980-ci illərdə Azərbaycanda sənayedə və elmi-texniki tərəqqini müəyyən edən sahələrdə, o cümlədən maşınqayırma və metal emalında, neft və neft kimyası sənayesində istehsalın həcmi sürətlə artdı, eyni zamanda, elektron, radio və digər yeni sənaye sahələri yaradıldı.

Sovetlər birliyinin inzibati-amirlik sistemi şəraitində yalnız respublikanın davamlı inkişafı deyil, eyni zamanda, xalqın milli-mənəvi dəyərlərinin qorunub saxlanması Ulu Öndərin ciddi önəm verdiyi və diqqət mərkəzində saxladığı prioritetlərdən olmuşdur. Heydər Əliyevin çox sonralar dediyi "Azərbaycanın varlığı bizim ən böyük tarixi sərvətimiz, bütün azərbaycanlıların qazandığı ən böyük nailiyyətdir" fikri onun fəaliyyətinin bütün dövrlərindən başlıca prinsip, qırmızı xətt kimi keçir. O, mənəvi dəyərlərimizin əsas qaynağı, xalqımızı birləşdirən mühüm dayaq olan Azərbaycan dilinin dövlət dili statusu səviyyəsinə yüksəldilməsinə nail olmuş, mədəniyyətimizin, incəsənətimizin inkişafına diqqət və qayğısını əsirgəməmişdir.

Beləliklə, Heydər Əliyev dövrün inkişaf tempindən geridə qalmış və milli ucqar hesab olunan respublikanı birincilər sırasına yüksəldərək özünün liderlik, müstəsna istedada malik təşkilatçı keyfiyyətlərini nümayiş etdirmişdir. Buna görə də Ulu Öndərimiz SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək vəzifələrə irəli çəkilmişdir. 2024-cü il aprelin 22-də Azərbaycan və Rusiya prezidentlərinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə səsləndirilmiş fikirlər böyük bir ölkənin sosial-iqtisadi həyatının mühüm sahələrinə rəhbərlik etmiş Heydər Əliyevin fəaliyyətini olduqca düzgün ifadə edir. Rusiya Federasiyasının iki dəfə nəqliyyat yolları naziri olmuş Gennadi Fadeyev BAM ilə birbaşa əlaqəsi olan şəxs kimi xatirələrini bölüşərək demişdir: "Biz Heydər Əlirza oğlu haqqında danışanda insanlarda belə bir təəssüratın yarandığını görürük: o, insanları çox sevən insan idi. O, kilometrlərlə deyil, tonlarla deyil, talelərlə, BAM-çıların bu və ya digər müddət ərzində işlədiyi şəraitlə maraqlanırdı. O, heyrətamiz rəhbər idi".

Bəli, milyonlarla insanın səmimi inamı, etibarı Heydər Əliyev siyasətinin həmişəyaşarlığının və əbədiliyinin rəhnidir. Böyük Britaniyanın Baş naziri olmuş Uinston Çörçildən vəzifədən getdikdən sonra soruşurlar ki, hakimiyyəti illərində gördüyü hansı işləri səhv hesab edir. Cavabında o deyir:



"Mən işləri görərkən kimlərin sonralar nə düşünəcəyini fikirləşmədim, konkret şəraitdə ingilis xalqı üçün nəyi doğru, faydalı bildimsə, onu da etdim". Ulu Öndər Heydər Əliyev də mütərəqqi şəxsiyyət və lider kimi gərgin mübarizəsini yalnız öz xalqının istək və arzularının həyata vəsiqə alması üzərində qurmuşdur.

Heydər Əliyev heç vaxt öz xalqının taleyinə biganə qalmamış, hətta həyatını riskə ataraq Azərbaycanın haqq mübarizəsinin önündə getmiş, böyük uzaqgörənliklə onu doğru məcraya yönəltmişdir. 1990-cı ilin Qanlı Yanvarından sonra həyatına yönəlmiş təhdidlərə baxmayaraq, sovet ordusunun Bakıda törətdiyi qətliamı cinayət adlandırmış və bu məsələdə əli olanların cəzalandırılmasını qətiyyətlə tələb etmişdir. Heydər Əliyev yenə də həyatını riskə ataraq, silahdaşlarının təqib olunduğunu, qətlə yetirildiyini bilə-bilə Bakıya qayıtmış, tarixinin ən acı günlərini yaşayan xalqı ilə birlikdə olmuş, onu tək qoymamışdır.

Tarixin qırılma anlarında heç də bütün siyasi liderlərin bacarmadığı qətiyyəti və zamanın sınağından çıxmış güclü xarakteri ilə siyasi təfəkkürdə nümunə yaratmış Heydər Əliyev obrazı özündə prinsipiallığı, mətinliyi, dövlətçilik dəyərlərinə sadiqliyi əks etdirir. Bakıdakı bədxahların, millətin siyasi iradəsi ilə hesablaşmayan marginallaşmış dairələrin təzyiqi nəticəsində doğma yurdu Naxçıvana getməli olan Ulu Öndər düşmən əhatəsində qalmış muxtar respublikada Azərbaycanın istiqlaliyyəti uğrunda mühüm addımlar atmışdır. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə işə başlayan 12-ci çağırış Naxçıvan Ali Sovetinin birinci sessiyasında qəbul olunmuş "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" və digər mühüm qərarlar Azərbaycanın dövlət müstəqilliyinin bərpası prosesində əhəmiyyətli rol oynamış tarixi sənədlər olmuşdur.

Azərbaycan 1993-cü ildə növbəti dəfə tarixin qırılma anını yaşayırdı: elan olunmamış müharibədəki məğlubiyyətləri siyasi fürsət bilən AXC-Müsavat cütlüyü ölkəni vətəndaş müharibəsinə sürükləmişdi, hələ formalaşmamış dövlətçilik başıpozuq qüvvələrin əlində oyuncağa çevrilmiş, ayrı-ayrı bölgələrdə separatizm meyilləri baş qaldırmışdı. Çörəklə sınağa çəkilən xalqın gələcəyə ümidi tükənmiş, insanlar övladlarının, Vətənlərinin sabahı üçün narahat olur, dərinləşən böhrandan çıxış yolları axtarırdılar. Xalqın ümummilli axtarışlarının ünvanı yenə də Heydər Əliyev şəxsiyyəti oldu. Ulu Öndər Naxçıvandan Bakıya qayıdanda ölkə artıq vətəndaş qarşıdurmasının astanasında idi, dövlətin idarəçiliyinə məsul olan şəxslər isə öz həyatlarını xilas etmək üçün qaçıb gizlənmişdilər.

Heydər Əliyevin həmin dövrdəki fəaliyyəti, sözün əsl mənasında, siyasi ustalıq, dərin zəka, müdriklik, fədakarlıq və vətənpərvərlik nümunəsidir. Ulu Öndər xarici təhdidlər, hərbi təcavüz, daxili qarşıdurmalar, habelə sosial və iqtisadi fəlakət vəziyyətində olan ölkəni faktiki məhv olmaqdan xilas etdi, dövlətçiliyimizə qarşı yönələn çoxsaylı təhlükələr, qiyamlar, sui-qəsdlər onu yolundan döndərmədi, müstəqilliyimizi beşiyində boğmaq istəyən daxili və xarici qüvvələrin məkrli planları iflasa uğradı. Azərbaycan öz dahi liderinin, böyük oğlunun səyləri nəticəsində tarixin sınağından şərəflə çıxaraq tərəqqi yolu ilə irəlilədi, inkişaf etdi, dünya xəritəsində layiqli yerini tutaraq müstəqilliyini əbədi və dönməz etdi.

Dünya tarixindən məlumdur ki, liderlərin uğur qazanmasında onların şəxsi keyfiyyətləri ilə yanaşı, xalqına bağlılıq, fəaliyyətində milli maraqların prioritetlik səviyyəsi kimi amillər də mühüm rol oynayır. Liderlər xalqı düşündürən problemlərin yalnız nəzəri həllini göstərməklə kifayətlənmir, həm də onların aradan qaldırılmasına bilavasitə rəhbərlik edirlər. Liderin tarixdə rolu öz xalqı üçün gördüyü işlərin miqyası və əhəmiyyəti ilə ölçülür. Bu baxımdan Heydər Əliyev Ümummilli Lider kimi müstəqil Azərbaycana rəhbərliyi dövründə uzaqgörən siyasəti ilə xalqımızın maraqlarını reallaşdırmış və onun taleyində müstəsna rol oynamışdır.

Heydər Əliyev Azərbaycanda dövlət institutlarının fəaliyyətini və dövlət idarəçilik sistemini yenidən qurmuşdur. 1994-1995-ci illərdə dövlət çevrilişi cəhdlərinin qarşısı alındıqdan və ictimai-siyasi sabitlik təmin edildikdən sonra Ulu Öndər bütün gücünü və enerjisini bir tərəfdən fəal diplomatiya vasitəsilə ölkəmizin beynəlxalq əlaqələrinin qurulması və möhkəmlənməsinə, ərazi bütövlüyü probleminin həllinə, digər tərəfdən isə sosial-iqtisadi inkişaf məsələlərinə yönəltmişdir.

1994-cü ildə dünyanın aparıcı dövlətlərini təmsil edən böyük neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının birgə işlənilməsini nəzərdə tutan "Əsrin müqaviləsi" imzalanmışdır. Bununla da Azərbaycanın neft strategiyasının əsası qoyulmuş və onun dünyada geoiqtisadi mövqeyi güclənmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynayan bu nəhəng layihə Heydər Əliyevin əzmkar və prinsipial fəaliyyətinin təntənəsi kimi tarixə düşmüşdür. Ümummilli Liderin məqsədyönlü siyasəti nəticəsində ölkəmizin enerji təhlükəsizliyinin əsası qoyulmuş, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı layihələrin reallaşmasında yaxından və fəal iştirak etməyə başlamışdır.

Heydər Əliyev Azərbaycanın xarici siyasətinə çeviklik, məqsədyönlülük və praqmatizm kimi dəyərlər gətirmişdir. İkitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsi, güc mərkəzləri ilə münasibətlərdə balansın saxlanması, qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq hüququn normaları, onlardan irəli gələrək dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşılması, bir-birinin daxili işlərinə müdaxilə olunmaması kimi prinsiplər xarici siyasətin əsasını təşkil etmişdir. Ümummilli Liderin milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycana beynəlxalq aləmdə çoxlu dost ölkə, etibarlı tərəfdaş qazandırmış, onun nüfuzunu artırmışdır. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Heydər Əliyevin siyasətində Ermənistan-Azərbaycan münaqişəsinin həlli əsas yer tutmuş, Ulu Öndər Azərbaycanın prinsipial mövqeyini böyük ustalıqla müdafiə etmiş, beynəlxalq təşkilatların tribunalarından münaqişə haqqında həqiqətləri bütün dünyaya çatdırmış, beynəlxalq birliyin ədalətli mövqeyinə nail olmaq üçün ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyası xalqımızın birliyini, cəmiyyətdə dövlətçilik və vətənpərvərlik şüurunun inkişafını təmin etmiş, onun fəlsəfi dünyagörüşündən, zəngin mədəni irsindən güc alaraq müstəqil dövlət quruculuğunun əsas istiqamətlərini özündə birləşdirmiş mükəmməl dəyərlər sisteminə çevrilmişdir. Hələ 1969-1982-ci illərdə - Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev hesab edirdi ki, xalqın milli identikliyinin başlıca şərtlərindən biri onun mədəni inkişafında mühüm rol oynamış şəxsiyyətlərin milli yaddaşda yerinin ucaldılması amili ilə birbaşa bağlıdır. Ulu Öndər deyirdi: "Bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdəki hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəni irsi, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu vardır. Ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir". Məhz bu səbəbdən o, Bakıda və digər şəhərlərdə mədəniyyət, ədəbiyyat və elm xadimlərimizin abidələrinin ucaldılmasını, bütün respublika üzrə tarix-diyarşünaslıq muzeylərinin, tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ev muzeylərinin və digər mədəniyyət ocaqlarının yaradılmasını, onların yubileylərinin geniş şəkildə qeyd olunmasını vacib hesab etmiş və buna nail olmuşdur.

Azərbaycan yazıçılarının 1981-ci il iyunun 12-də keçirilmiş VII qurultayında Heydər Əliyevin çıxışı həmin dövrün reallıqlarında həm cəsarətin, qətiyyətin, prinsipiallığın, həm də öz xalqına, onun mədəni irsinə dərin bağlılığın, vətənpərvərliyin bariz nümunəsidir. Tədbirdəki çıxışında Heydər Əliyev Azərbaycan milli mədəniyyətinin dirçəlməsi, ziyalıların xalqın mənafeyinə fədakarlıqla xidməti barədə fikirlərini bölüşmüş və demişdir: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən və əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz". Heydər Əliyevin xalqımızın mədəniyyətinin, mənəvi dəyərlərinin qorunması istiqamətində atdığı addımlar həmin dövrdə milli özünüdərkin dərinləşməsində və inkişafında böyük rol oynamışdır.

Artıq müstəqillik dövründə Heydər Əliyev öz nəzəri-ideoloji baxışlarını inkişaf etdirərək sistem halına salmış və azərbaycançılıq ideyasını irəli sürərək onun əsas prinsiplərini müəyyənləşdirmişdir. Heydər Əliyev azərbaycançılığın tarixi-siyasi əhəmiyyəti barədə demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik". Azərbaycançılıq ideologiyası müstəqil dövlət quruculuğu, milli inkişaf, xalqımızın vahid amal uğrunda mübarizəyə səfərbər edilməsi, habelə ölkəmizdə yaşayan müxtəlif xalqların, etnik qrupların və dinlərin nümayəndələri arasında qarşılıqlı hörmət və etimad mühitinin yaradılması, xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanmasında və həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Ulu Öndərin müəllifi olduğu və milli dövlətçiliyimizin konseptual əsaslarını təşkil edən azərbaycançılıq ideologiyası zamanla daha da zənginləşmiş və inkişaf etmiş, bu gün olduğu kimi, gələcəkdə də öz aktuallığını saxlayacaq və xalqımızı yeni qələbələrə, nailiyyətlərə səfərbər edəcəkdir.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-2003-cü illərdə həyata keçirilmiş müstəqil dövlət quruculuğu prosesinə və əldə olunmuş nəticələrin Azərbaycanın sonrakı taleyində roluna siyasi qiymət verərək demişdir: "10 il ərzində Azərbaycanda dövlət quruculuğu işində çox böyük addımlar atılmışdır və bu addımlar bu gün bizim uğurlu siyasətimizi şərtləndirir".

2023-cü il mayın 10-da Şuşa şəhərinə səfəri zamanı çıxışında cənab Prezident bildirmişdir: "Ulu Öndərin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir və biz - onun davamçıları onun yolu ilə gedirik. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam".

Bu gün fəxrlə yaşadığımız, qurur duyduğumuz müstəqil və güclü Azərbaycan dövləti Heydər Əliyev siyasi irsinin və onu ardıcıl şəkildə zənginləşdirən, inkişaf etdirən Prezident İlham Əliyev siyasətinin təntənəsi və zirvəsidir. Sağlam təməl üzərində davam etdirilən, milli maraqlara əsaslanan, müasir dövrün çağırışlarına cavab verən bu siyasət qarşıdan gələn dövrdə də əldə edəcəyimiz nailiyyətlərin əsasında dayanacaqdır.

Bu gün Azərbaycan təkcə postsovet məkanında deyil, daha geniş coğrafiyada iqtisadi gücünə, milli iqtisadiyyatın kəmiyyət və keyfiyyət göstəricilərinə görə qabaqcıl yerlərdən birini tutur. Beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında Azərbaycanın dünyada ən yüksək iqtisadi artıma malik olan, islahatlar həyata keçirən və investisiya yatırılan ölkə olduğu bildirilir. Bunu təsdiq edən faktlardan biri kimi "Financial Times" qrupunun "FDİ İntelligence" nəşrinin 2023-cü ildə ən çox birbaşa xarici investisiya yatırılan dünya şəhərlərinin TOP 100 reytinqində Bakının 3-cü yerdə qərarlaşmasını göstərmək olar. Ölkəmizdə makroiqtisadi sabitlik qorunur, adambaşına düşən milli gəlir və strateji valyuta ehtiyatları ildən-ilə artır, qeyri-neft sektorunun iqtisadi artımda payı əsaslı şəkildə yüksəlir, iqtisadiyyata investisiya qoyuluşunun miqdarı çoxalır və bərpaolunan enerji mənbələrindən istifadənin həcmi genişlənir. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsi nəticəsində şəhər və rayonlarda müasir infrastruktur formalaşdırılmış, sahibkarlıq inkişaf etmiş, əhalinin məşğulluq səviyyəsi və rifah halı yüksəlmişdir.

Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə nəhəng enerji və nəqliyyat layihələri reallaşdırılmışdır və bu proses davam edir. Təbii resurslara əsaslanan iqtisadiyyatdan "biliklər iqtisadiyyatı"na keçidin ardıcıl surətdə təmin olunması strateji inkişaf hədəfləri sırasında xüsusi yer tutur. Cəmiyyət həyatının müxtəlif sahələrində rəqəmsal texnologiyaların və innovasiyaların tətbiqi genişlənir. Ölkəmizin beynəlxalq texnoloji, innovativ və iqtisadi mərkəzlərlə əlaqələri dərinləşir, telekommunikasiya, tranzit və nəqliyyat xidmətləri inkişaf edir.

Prezident İlham Əliyevin xarici siyasəti Azərbaycanın dünyada mövqeyini möhkəmləndirmiş, milli strateji hədəflərin reallaşmasını təmin etmiş, ölkəmiz bölgədə güc mərkəzinə, beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilmişdir. Azərbaycan nəinki bəşəriyyəti narahat edən problemlərin həllinə dair beynəlxalq təşəbbüslərə fəal şəkildə qoşulur, həm də aparıcı beynəlxalq təsisatların - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü, Qoşulmama Hərəkatının sədri olaraq dünya birliyi tərəfindən dəstəklənən qlobal təşəbbüslərin müəllifi kimi tanınmışdır. Ölkəmiz regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində, əməkdaşlıq mühitinin möhkəmləndirilməsində mühüm rol oynayır. Azərbaycanın xarici siyasətdə əldə etdiyi böyük uğurlar, nəhəng enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində təşəbbüskarlığı və fəal iştirakı, xeyli sayda beynəlxalq tədbirlərə ev sahibliyi etməsi onun dünyada geosiyasi və geoiqtisadi nüfuzunu əsaslı dərəcədə artırmışdır.

Milli-mənəvi dəyərlərin, tolerantlıq ənənələrinin qorunub saxlanması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində məqsədyönlü siyasət həyata keçirilir, dünyada gedən qloballaşma prosesinin cəmiyyətimizə mənfi təsirinin qarşısının alınmasına və milli kimliyimizin qorunması məsələlərinə xüsusi diqqət yetirilir.

2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan Vətən müharibəsində tarixi Qələbəmizin təməlində Prezident İlham Əliyevin ətrafında xalqımızın sıx birliyi, ölkəmizin davamlı inkişafı, xarici siyasətdə və ordu quruculuğunda əldə edilmiş böyük nailiyyətləri dayanır. 2023-cü ilin sentyabr ayında Azərbaycanın Qarabağ bölgəsində apardığı birgünlük lokal antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Ermənistanın xalqımıza qarşı apardığı işğalçılıq siyasətinə birdəfəlik son qoyulmuşdur. Prezident İlham Əliyevin 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağını ucaltması xalqımızın həyatında möhtəşəm tarixi hadisəyə çevrilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə hazırda böyükmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir, insanlar doğma yurd-yuvalarına dönürlər. Azərbaycan dövlətinin heç bir kənar yardım olmadan, öz gücünə gördüyü işlərin miqyası həqiqətən də heyrət doğurmaya bilməz. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına şəxsən nəzarət edir, dövlətimizin başçısının tapşırıqları və dəyərli tövsiyələri işlərin tam və məsuliyyətlə icrasına etibarlı zəmin yaradır. 2020-2023-cü illərdə cənab Prezident işğaldan azad edilmiş ərazilərdə 400-ə yaxın tədbirdə iştirak etmiş, o cümlədən 8 şəhər, 32 kənd və qəsəbə olmaqla, 120 layihənin təməlini qoymuş, müxtəlif təyinatlı 71 tikinti obyektinin açılışını etmişdir. 2022-ci il iyulun 19-dan bu günədək Laçın və Füzuli şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Ağdərə rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə ümumilikdə 1727 keçmiş məcburi köçkün ailəsinin (6754 nəfər) qayıdışı baş tutmuşdur.

Yaşayış məntəqələrinin salınması ilə yanaşı, bölgədə geniş bərpa-quruculuq işləri aparılır. Orta ümumtəhsil məktəbləri, körpələr evi-uşaq bağçaları, xəstəxanalar, mədəniyyət və turizm obyektləri kimi sosial təyinatlı obyektlərin bərpası və yenidən qurulması ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. İnfrastruktur layihələri sırasında Füzuli və Zəngilan şəhərlərində beynəlxalq hava limanları istismara verilmiş, Laçın rayonunda hava limanının tikintisi davam etdirilir. Həmçinin avtomobil yolları, tunellər, körpülər, dəmir yolları, magistral qaz xətləri tikilir, su elektrik stansiyaları və yarımstansiyalar, su anbarları inşa edilir.

İşğaldan azad edilmiş ərazilərdə bu günədək 118 min 503 hektar sahə, o cümlədən yaşayış məntəqələri üzrə 18 min 143 hektar sahə mina və partlamamış hərbi sursatlardan təmizlənmişdir.

Bütün ölkədə olduğu kimi, işğaldan azad edilmiş ərazilərdə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə bu il fəaliyyətinin 20 ili tamam olan Heydər Əliyev Fondunun gördüyü işlər və həyata keçirdiyi layihələr xüsusi önəm daşıyır. Əminliklə demək olar ki, Heydər Əliyev Fondunun elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrə aid proqram və layihələri, sosial problemlərin həllinə dəstəyi, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək göstərməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, mədəniyyətimizin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliği sahələrində həyata keçirdiyi layihələr ölkəmizin ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır.

İndiki və gələcək nəsillərə mütərəqqi yol göstərən, xalqa və dövlətə layiqli xidmət nümunəsi olan Heydər Əliyev irsinin öyrənilməsi və təbliği həmişə mühüm aktuallıq kəsb etmişdir. Heydər Əliyev Fondu Ümummilli Liderin ideyalarının ictimai fikirdə möhkəmləndirilməsi məsələlərini daim diqqət mərkəzində saxlayır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. 44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunmasını Heydər Əliyev ideyalarının təntənəsi kimi qiymətləndirən hörmətli Mehriban Əliyeva demişdir: "Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası, onun müqəddəs arzusu reallaşıb - bizim 30 ilə yaxın işğal altında olmuş torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilib".

2024-cü il fevralın 7-də keçirilmiş prezident seçkilərində parlaq qələbə qazanmış İlham Əliyev andiçmə mərasimində çıxışında bildirmişdir: "İndi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq".

2024-cü il aprelin 19-da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azər-baycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə Qazax rayonuna aid tarixi torpaqlarımızın geri qaytarılması ilə bağlı razılığın əldə olunması əhəmiyyətinə görə tarixi hadisə olmaqla yanaşı, həm də ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsində qalibiyyətlə irəliləyəcəyinə dəlalət edən amildir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyətinin və diplomatik məharətinin təcəssümü olan bu qələbə həm də dövlətimizin başçısının uzun illər həyata keçirdiyi siyasətin təntənəsi və məntiqi nəticəsidir. Azərbaycan Prezidenti regionumuza kənardan müdaxilə etməyi az qala özünün gündəlik işinə çevirmiş xarici dairələrə bir daha göstərdi ki, bölgəmizə aid məsələlər, o cümlədən Azərbaycanla Ermənistan arasında sülh prosesi iki ölkə arasında, vasitəçilər olmadan həll edilə bilər. Bu, bir daha təsdiq edir ki, dünya nizamında layiqli yer tutan Azərbaycan dövləti regionda sülh, təhlükəsizlik və inteqrasiya proseslərinə dinamik təsir göstərən ciddi geosiyasi aktora çevrilmişdir.

Azərbaycan dövləti ciddi qlobal problem olan iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində ardıcıl siyasət həyata keçirir, 2030-cu ilə qədər bərpaolunan enerji həcminin və enerji səmərəliliyinin artırılması ilə bağlı beynəlxalq təşəbbüsə qoşulmuşdur. Ölkəmizdə "yaşıl enerji" sənayesinin inkişafı üçün müvafiq normativ-hüquqi aktlar qəbul olunur, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları, Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan edilmişdir. Azərbaycan xarici tərəfdaşları ilə birlikdə bərpaolunan enerji sahəsinin inkişaf etdirilməsi məqsədilə böyük layihələr reallaşdırmağa başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitin qorunmasına böyük diqqətin və həssas münasibətin göstəricisidir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə böyük hörmət və etimadının ifadəsi olmaqla yanaşı, həm də yeni inkişaf mərhələmizdə əldə edilmiş növbəti uğurdur. Prezident İlham Əliyevin Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi qlobal tədbirin reallaşması ilə bağlı müvafiq texniki-təşkilati tədbirlər həyata keçirir. Əminliklə demək olar ki, "Yaşıl dünya naminə həmrəy olaq!" şüarı altında yüksək səviyyədə keçiriləcək COP29 qlobal əhəmiyyət daşıyan bu problemin həllinə mühüm töhfə olmaqla yanaşı, həm də ölkəmizin güclü potensialını bütün dünyaya nümayiş etdirəcəkdir.

Mübaliğəsiz deyə bilərik ki, 30 illik müstəqillik tariximiz Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin sayəsində əfsanələrin reallığa çevrildiyi bir dövr olmuşdur. Ulu Öndər iqtisadi müstəqilliyimizin və sürətli inkişafımızın rəhni hesab olunan "Əsrin müqaviləsi"ni imzalayanda da, ölkəmizi nəhəng transmilli layihələrin mərkəzinə çevirəndə də çoxları bunu əfsanə, qısa vaxtda görülməsi mümkün olmayan iş hesab edirdi. Lakin müdrik siyasi xadimin praqmatizmi, uzaqgörənliyi hətta əfsanələrin də reallığa çevrildiyini bütün dünyaya sübut etdi. Bu gün Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdən xalqa müraciətləri, viran qoyulmuş Vətən torpağının yenidən dirçəldilməsi vaxtilə çoxlarının mümkünsüz, xəyal hesab etdiyi ərazi bütövlüyü bərpa edilmiş bütöv Azərbaycan reallığıdır.

Heydər Əliyev artıq zaman kontekstinə sığmayan, bütün dövrlərdə öz əzəmətini hiss etdirən dahi şəxsiyyət, böyük liderdir. O, sadə, zəhmətkeş Azərbaycan ailəsində boya-başa çataraq zəngin və nümunəvi həyat yaşamış, müasir dünyanın görkəmli siyasi korifeyləri səviyyəsinə yüksəlmişdir. Azərbaycan xalqı yaddaşına müdrik lider, xilaskar, nəhəng quruculuq işlərinin müəllifi, həyat və fəaliyyəti ilə Vətənə sədaqətin, bağlılığın ali meyarını yaratmış tarixi şəxsiyyət kimi həkk olunan Ulu Öndərlə fəxr etməkdə haqlıdır və gələcək nəsilləri onun şəxsiyyəti timsalında tərbiyə etməyə mənəvi haqqı var.

***Samir Nuriyev***
***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri***

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər








Mayın 10-da müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Tahir Budaqov: YAP parlament seçkilərinə hazırlıqla bağlı lazım olan bütün tədbirləri həyata keçirməkdədir



Parlament seçkilərinin vaxtı ilə bağlı hələlik son qərar yoxdur. Buna baxmayaraq, Yeni Azərbaycan Partiyası yalnız seçki ərəfəsində yox, seçkilərarası müddətdə də tam olaraq növbəti seçkiyə hazırlıq prosesini aparır.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib.

T. Budaqov bildirib ki, Yeni Azərbaycan Partiyası bu gün parlament seçkilərinə hazırlıqla bağlı lazım olan bütün tədbirləri həyata keçirməkdədir.

# “Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti”

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib





Mayın 10-da Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti” mövzusunda tədbir keçirilib.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbirə qatıldıqları üçün təşəkkürünü bildirib. Tahir Budaqov qeyd edib ki, müasir dövlətçilik tariximizin taleyüklü məqamları və ən böyük uğurları, heç şübhəsiz, dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır: “Müdrik dövlət xadimi fəaliyyətinin bütün mərhələlərində milli maraqların qorunmasına, mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görmüş və Azərbaycanın tərəqqisini təmin etmişdir. SSRİ dövründə Heydər Əliyevin respublikamıza rəhbərliyi zamanı görülən işlər ölkəmizin hərtərəfli inkişafının əsasını qoymuş, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır. Ümummilli Liderimizin Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi fəaliyyəti də müasir dövlətçilik tariximizin ən mühüm səhifələrindəndir. O, həmin dövrdə blokada şəraitində olan muxtar respublikanı ağır sosial-iqtisadi vəziyyətdən xilas edərək dirçəlişinə nail olmuş, müstəqillik ideyası əsasında gələcək milli inkişafın siyasi-ideoloji təməllərini formalaşdırmışdır. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər isə Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və siyasi yüksəliş dövrü kimi həkk olunmuş, bugünkü tarixi uğurlarımızın, o cümlədən möhtəşəm Zəfərimizin fundamental əsasları yaradılmışdır”.

YAP Sədrinin müavini bildirib ki, müasir Azərbaycanın bugünkü reallığı Ulu Öndərin milli və bəşəri məzmunlu ideyalarının əbədiyaşarlığını aydın ifadə edir: “Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev xalqımıza şanlı dövlətçilik tarixinin ən möhtəşəm uğurlarını qazandırmışdır. Bu nailiyyətlərin zirvə nöqtəsi isə 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi və ölkəmizin suverenliyinin bərpasıdır. Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir, ölkəmizin qarşısında yeni perspektivlər açılır. Azərbaycanın beynəlxalq mövqeyi, o cümlədən tarixi Zəfərimizin əsasları möhkəmləndirilir, Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işlərinə paralel olaraq Böyük Qayıdış prosesi uğurla həyata keçirilir, Azərbaycanın milli gücü gündən-günə artır. Bir sözlə, mövcud reallıqlar bir daha təsdiq edir ki, Heydər Əliyev yolu Azərbaycanın yüksəlişinin alternativsiz əsaslarını təşkil edir, onun zəngin dövlətçilik irsi və əbədiyaşar ideyaları gələcək uğurlarımıza yol açır”.

Tahir Budaqov söyləyib ki, Heydər Əliyevin tarixiliklə müasirliyin vəhdətini yaradan ideyalarının tədqiqi və təşviqi qarşımızda duran çox mühüm vəzifədir: “Ümummilli Liderin ideyaları əsasında Azərbaycana tarixi uğurlar qazandıran, onun dövlətçilik irsini yaşadan, xalqın inam və etimadını doğruldaraq yeni və müstəqil Azərbaycan quruculuğunu təmin edən Yeni Azərbaycan Partiyası bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyət göstərir. Bu gün biz Ulu Öndərin zəngin dövlətçilik irsinin yaşadılması məqsədilə və onun əziz xatirəsinə sonsuz ehtiram əlaməti olaraq yaradılmış Heydər Əliyev Fondunun 20 illiyini də qeyd edirik. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond adını daşıdığı dahi şəxsiyyət, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyalarının tədqiqi və təşviqinə, siyasi irsinin xalqımızın milli-mənəvi sərvəti kimi gələcək nəsillərə ötürülməsinə dəyərli töhfələr verir. İstər ölkəmizdə, istərsə də respublikamızın hüdudlarından kənarda çoxşaxəli fəaliyyət göstərərək səmərəli layihələr reallaşdıran Heydər Əliyev Fondu həm yeni cəmiyyət quruculuğu və respublikamızın davamlı inkişafında, həm də Azərbaycanın müsbət beynəlxalq imicinin möhkəmlənməsində müstəsna rol oynayır. Heydər Əliyev Fondunun irəli sürdüyü təşəbbüslər və həyata keçirdiyi layihələr cəmiyyətimizin yaradıcı və intellektual potensialının inkişafına, mənəvi dəyərlərin qorunub yaşadılmasına, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə, milli həmrəyliyin güclənməsinə, xeyirxahlıq, humanizm kimi ali dəyərlərin və mədəniyyətlərarası dialoqun təşviqinə, eləcə də Azərbaycan reallıqlarının beynəlxalq müstəvidə geniş təbliğinə xidmət göstərir. Xüsusilə də, möhtəşəm Zəfərimizin əsaslarının möhkəmləndirilməsi, işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində görülən işlər xalqımızın öz keçmişinə sadiqliyini və gələcəyə inamlı baxışını ifadə edir, onun qurub yaratmaq əzmini və bütövlükdə Azərbaycanın qüdrətini dünyaya nümayiş etdirməklə həm ölkəmizdə, həm də beynəlxalq arenada olduqca yüksək qiymətləndirilir”.

Tahir Budaqov diqqətə çatdırıb






davamı 6-cı səhifədə

# “Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti”

## Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib

əvvəli 5-ci səhifədə

ki, Azərbaycan Ulu Öndərin siyasi varisi cənab İlham Əliyevin liderliyi ilə müasir dövlətçilik tarixinin möhtəşəm nailiyyətlərlə zəngin olan şərəfli bir dönəminə yekun vuraraq yeni dövrə qədəm qoymuşdur: “Dövlət başçısının qeyd etdiyi kimi, “biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq”. Artıq yeni çağırışlar və reallıqlar fonunda ölkəmizin qarşısında növbəti strateji hədəfləri gerçəkləşdirmək vəzifəsi durur. Cari ilin fevral ayında keçirilmiş Zəfər seçkisinin də təsdiqlədiyi kimi, Azərbaycan xalqı yeni dövrdə də qarşıda duran məqsədləri məhz İlham Əliyevin rəhbərliyi ilə reallaşdırmaq əzmindədir. Şübhə yoxdur ki, ölkə başçısı, partiyamızın Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Heydər Əliyev ideyalarına əsaslanan siyasəti tərəqqi və Zəfər yolunda inamla irəliləyən Azərbaycana bundan sonra da möhtəşəm nailiyyətlər qazandıracaq, milli maraqlarla bəşəri dəyərlərin vəhdətini özündə əks etdirən Heydər Əliyev irsi ölkəmizə yeni qələbələr bəxş edəcəkdir”.










Sonra Yeni TV-nin hazırladığı “Heydər Əliyev irsi: milli maraqlarla bəşəri dəyərlərin vəhdəti” filmi nümayiş etdirilib.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini, Baş nazirin müavini Əli Əhmədov bildirib ki, xalqımız Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümlərini böyük coşqu və ehtiramla qeyd edir: “Bu, bir tərəfdən, xalqımızın Heydər Əliyevə, onun şəxsiyyətinə və tarixi xidmətlərinə verdiyi böyük qiymətin təzahürüdür, digər tərəfdən isə, xalqın milli dövlətçiliyə ehtiramının ifadəsidir. Heydər Əliyevin qurduğu müasir müstəqil Azərbaycan ötən illər ərzində daha qüdrətli dövlət olub, daha güclü ölkə kimi dünya birliyində özünü təsdiq edib. Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə görülən işlərə, xalqımızın həyatında baş verən əsaslı dəyişikliklərə nəzər salsaq, bu fikri təsdiqləyən kifayət qədər faktlar söyləmək mümkündür”.

“1993-cü ilə qədərki və ondan sonrakı Azərbaycan gözlərimiz qarşısındadır. 1990-cı illərin əvvəlində respublikamızda böhran hökm sürürdü. Belə bir şəraitdə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı zərurətə çevrildi. O zamana qədər xalq Heydər Əliyevi qurucu Lider kimi qəbul edirdisə, bu dəfə Ulu Öndər xilaskarlıq missiyasını yerinə yetirdi. Xaos, anarxiya, ümidsizlik içərisində olan, dərin böhran keçirən Azərbaycanda məhz Ulu Öndərin hakimiyyətə qayıdışından sonra, Onun qətiyyətli islahatlar strategiyası nəticəsində əmin-amanlıq bərqərar olundu, dinamik inkişaf təmin edildi” ,- deyə Əli Əhmədov vurğulayıb.

Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən danışan YAP Sədrinin müavini söyləyib ki, Azərbaycanın uğurlu inkişafı məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində təmin edilib: “Ümummilli Liderin Azərbaycan xalqı və dövləti qarşısında xidmətləri o qədər böyükdür ki, Heydər Əliyevin xatirəsi hər gün, hər zaman ehtiramla və minnətdarlıqla anılır. Azərbaycanın hər bir guşəsində Heydər Əliyevin izi görünür, hər bir sahənin inkişafında Ulu Öndərin müəyyənləşdirdiyi siyasət özünü göstərir. Bu gün Azərbaycan Heydər Əliyev ideyaları əsasında uğurla, qürurla inkişaf edir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət Azərbaycan xalqına xidmət edir”.

Əli Əhmədov söyləyib ki, bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Onun sözlərinə görə, hazırda Azərbaycan güclü, qüdrətli, beynəlxalq aləmdə nüfuzlu bir dövlətə çevrilib: “Azərbaycan dövlətinin möhkəm təməllər üzərində qurulmasının nəticəsidir ki, daha da güclənirik, beynəlxalq müstəvidə ölkəmizin nüfuzu daha da artır. Bu gün ölkəmizlə hesablaşırlar. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası dövlətimizin gücünü daha da artırıb. Qazanılan möhtəşəm nailiyyətlər göstərir ki, Heydər Əliyev siyasəti bundan sonra da uğurla davam etdiriləcək. Ümummilli Lider Heydər Əliyevin ideyaları daim yaşayacaq və Azərbaycana möhtəşəm uğurlar qazandıracaq”.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə çıxışında bildirib ki, xalqımızın böyük Öndərimizə sonsuz məhəbbətinin ciddi əsasları var: “Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri misilsizdir. Azərbaycanın gələcək müstəqilliyi üçün zəmin hazırlayan böyük dövlət xadimi hələ SSRİ dönəmində milli ruhun və azərbaycançılığın sovet ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını almaqla onun dirçəldilməsi istiqamətində mühüm işlər görmüşdü. Nəticə etibarilə, Azərbaycan xalqı müstəqilliyinə qovuşdu, Heydər Əliyev müstəqilliyimizin memarı kimi milli dövlətçilik tariximizə öz möhürünü vurdu”.

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətinin haqq səsini bütün dünyaya çatdırdı, müstəqil dövlətçiliyin siyasi, iqtisadi əsaslarını yaratdı, xalqın güclü dövlətə sahib olmaq arzusunu reallığa çevirdi, adını qızıl hərflərlə bəşər tarixinə yazdırdı: “Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq ideyalarının bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ümummilli Liderin zəngin təcrübəyə, parlaq zəkaya və üstün liderlik qabiliyyətinə əsaslanan siyasəti nəticəsində mümkün oldu”.

YAP İdarə Heyətinin üzvü qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim milli maraqlarımızın, milli-mənəvi dəyərlərimizin qorunmasına çalışıb. Eyni zamanda, Ulu Öndər gənclərimizi milli-mənəvi dəyərlər, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi.

Pərvin Kərimzadə deyib ki, bu gün Heydər Əliyev yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin siyasətində milli maraqlarımızın və mənəvi dəyərlərin qorunması başlıca yer tutur. Məhz bunun nəticəsidir ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevlə xalqımızın sarsılmaz birliyi sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olundu.

Heydər Əliyev ideyalarının xalqımızın milli-mənəvi sərvəti olduğunu söyləyən P.Kərimzadə “Ulu Öndərin zəngin mənəvi irsini, Onun ideyalarını gənc nəsillərə aşılamaq, Ümummilli Liderin qurub yaratdığı müstəqil Azərbaycanın çiçəklənməsində yaxından iştirak etmək bu il yaranmasının 20 illiyini qeyd edən Heydər Əliyev Fondunun fəaliyyətinin də əsas qayəsini təşkil edir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Ulu Öndərin zəngin irsini, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq istiqamətində genişmiqyaslı fəaliyyət göstərir. Bütövlükdə, Heydər Əliyev irsi milli maraqlarımızla bəşəri dəyərləri vəhdət olaraq özündə ehtiva edir”,- deyə vurğulayıb.

Çıxış edən Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, Azərbaycan adlı məmləkət nə qədər mövcuddursa, Ulu Öndər Heydər Əliyevin yaratdığı tarix də bizimlə yaşayacaq: “Bu, XX əsrin ikinci yarısında Azərbaycanın milli, mənəvi, mədəni, siyasi, iqtisadi həyatında Heydər Əliyevin dönüş yaratdığı tarixdir”.

Sadiq Qurbanov söyləyib ki, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, O, dövlət quruculuğu prosesinin ardıcıllığını təmin edəcək əsasları formalaşdırdı, eyni zamanda, cənab İlham Əliyevin şəxsində Azərbaycanın yüksəlişinin daimiliyini təmin edəcək siyasi varisini də müəyyənləşdirdi: “Ötən 20 ildə Azərbaycanın hər bir uğuru göstərir ki, Prezident İlham Əliyev Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısıdır. Onun elmə əsaslanan və təcrübədən uğurla çıxan innovativ dövlət idarəçiliyi ölkəni müasir inkişaf göstəricilərinə görə liderlər sırasına çıxarıb”.

Bu gün dünyanın iqlim dəyişmələri fonunda ciddi təhlükələr qarşısında olduğunu deyən S.Qurbanov diqqətə çatdırıb ki, iqlim dəyişmələrinin törətdiyi fəsadların qarşısını almaq üçün milli və beynəlxalq səviyyədə bir çox tədbir həyata keçirilir: “İqlim dəyişmələrinə aid olan BMT-nin Çərçivə Konvensiyasına 195-dən çox ölkə qoşulub və onlar mütəmadi olaraq bu mövzuya həsr olunmuş qlobal əhəmiyyətli konfranslar keçirirlər. Xüsusi qeyd etməliyik ki, ətraf mühitin və ekoloji tarazlığın qorunmasına həssaslıqla yanaşan Azərbaycan qoşulduğu beynəlxalq sazişlərin tələblərinə ciddi şəkildə riayət edir. Azərbaycan Respublikasının enerji transformasiya sahəsində lider olması bu fəaliyyətlərin kompleks şəkildə həyata keçirilməsinin nəticəsidir. Bu səbəbdən COP29-un ölkəmizdə keçirilməsi təsadüfi deyil. COP29 ölkənin beynəlxalq səviyyədə keçirdiyi növbəti tədbirdir və onun uğurlu olacağına şübhə yoxdur”.













Sadiq Qurbanov qeyd edib ki, qazanılan uğurların kökündə dayanan amillər sırasında dövlət idarəetməsinin səmərəliliyi xüsusi qeyd edilməlidir: “Dövlət idarəçiliyi strukturunda Birinci vitse-prezidentlik institutunun formalaşması, bu vəzifədə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın məqsədyönlü və uğurlu fəaliyyəti yeni idarəçilik texnologiyalarının vacib elementidir. Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq dövlət idarəçiliyi sahəsində həyata keçirilən çoxşaxəli islahatlar sayəsində əldə olunan uğurlar onu deməyə əsas verir ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi ideoloji kurs davam etdikcə, qədirbilən xalqımız Onun siyasi irsini yaşatdıqca, fəlsəfəsini dərk edərək siyasi varisliyi qoruyub saxladıqca Azərbaycan inkişaf möcüzəsi ilə dünyanı heyrətləndirməkdə davam edəcək”.

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev bütün ömrünü öz ölkəsinə, xalqına sərf etmiş Liderdir. Ulu Öndərin müdrik siyasətinin, əzmkar fəaliyyətinin nəticəsində ölkəmiz öz müstəqilliyini təmin edib, bugünkü güclü və bütöv Azərbaycanın təməlləri atılıb. Onun sözlərinə görə, Ulu Öndər Azərbaycan gənclərinə hər zaman xüsusi diqqət göstərib, ölkə gəncliyinin yüksəkixtisaslı kadr kimi formalaşması, ölkənin gələcəyinin sağlam təməllər üzərində qurulması Onun siyasətində əsas prioritetlərdən olub.

YAP Gənclər Birliyinin sədri deyib ki, Heydər Əliyevin böyüklüyü və müdrikliyi sadəcə xilaskar olmasında deyildi: “O, işğala məruz qalmış, iqtisadiyyatı, təhsil sistemi, ictimai-sosial həyatı tamamilə dağıdılmış Azərbaycanın yenidən qurulmasını təmin etdi. Bunun nəticəsi idi ki, qısa zaman kəsiyində ölkəmiz dirçəldi, dövlət təsisatları yenidən quruldu, xalqın təhlükəsiz və rahat mühitdə yaşaması üçün addımlar atıldı. Bu mərhələ gələcəyin güclü və bütöv Azərbaycanına hazırlıq dövrü idi. Ümummilli Liderin gəncliyə verdiyi böyük qiymət bu dövrdə də öz aktuallığını qoruyurdu. Məhz Heydər Əliyevin ölkəmizdə gənclər siyasətinin əsasını qoyması ilə Azərbaycan gəncliyi öz xilas yolunu tapdı. Gənclərlə iş sahəsində atılan addımlar, qəbul olunan qərarlar sağlam, vətənpərvər və savadlı gəncliyin formalaşması üçün bünövrəyə çevrildi”.

Bəxtiyar İslamov qeyd edib ki, Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz inkişafının növbəti mərhələsinə qədəm qoydu. Ümummilli Liderin əsasını qoyduğu siyasət Prezident İlham Əliyevin Liderliyi ilə Azərbaycanı qalib, bütöv və güclü ölkəyə çevirdi. Bu yolda Azərbaycan gəncliyi daim öz Liderinin ətrafında bir yumruq kimi birləşdi. “2020-ci ildə Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Zəfər məhz düşünülmüş siyasətin böyük uğuru idi. Həmin Zəfərlə başlayan yeni dövr ölkəmiz və xalqımız üçün yeni reallıqları da özü ilə bərabər gətirdi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmiz tarixinin ən qüdrətli dövrünü yaşamaqdadır. Yeni reallıqlar təkcə regionumuzda yox, bütün dünyada Azərbaycanı ən yüksək pilləyə qaldırıb”,- deyən YAP Gənclər Birliyinin sədri əlavə edib ki, Ulu Öndər Heydər Əliyevin keçdiyi ömür yolu, cəsarəti, xalqına və ölkəsinə olan sevgisi Azərbaycan gəncliyi üçün ən böyük nümunədir. Məhz buna görə də hər bir gənc Ulu Öndərin zəngin dövlətçilik irsini daim öyrənməlidir.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Almatı görüşü - sülh çağırışları, kommunikasiyalarla bağlı bəyanatlar...

## XİN başçılarının görüşü prosesi nəticəyə bir az da yaxınlaşdırır

Cənubi Qafqazda sülhün əldə olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində illərdir davam edən proses mühüm bir mərhələyə qədəm qoyub. Dünən Almatıda xarici işlər nazirləri səviyyəsində baş tutan görüş bir sıra mühüm məqamlarla yadda qaldı. Məsələnin danışıqlar, beynəlxalq hüquq və ədalət prisnpiləri üzrə həllini hər zaman prioritet elan etmiş Azərbaycan sülh prosesinə sadiqlik nümayiş etdirib. İki ildən artıq idi ki, fərqli müstəvilərdə, vasitəçilərin iştirakı ilə keçirilən görüşlər isə mühüm nəticələrə yol açmırdı - xüsusilə, Ermənistanın bəzi addımları konstruktiv yekuna addımlamağa imkan vermirdi. Azərbaycan isə məsələlərin həlli ilə bağlı ikitərəfli görüşlərin neytral zonalarda - hər iki ölkə üçün uyğun sayılan məkanlarda keçirilməsinə hər zaman tərəfdar olub. Bizim üçün əsas məsələ müdaxilə edilmədən iki tərəfin münasibətlərinin müəyyənləşməsi istiqamətində uğurların əldə edilməsidir. Almatıda keçirilən görüş ilk növbədə bu məqamına görə seçilir - Almatının yeni dönəmdə Ermənistan ilə Azərbaycan arasında müzakirə platformasına çevrilməsi imkanları ötən ayın ortalarında Qazaxıstan Prezidenti Kasım - Jomart Tokayevin İrəvana səfəri zamanı müzakirə predmeti olmuşdu. Qazaxıstan Prezidentinin Astananın İrəvan və Bakının sülh müqaviləsi bağlamaq istəyini alqışlamasını önə çəkməsi, xoşməramlılıq missiyasını üzərinə götürərək danışıqlar üçün platforma təqdim etməyə hazır olduğunu bildirməsi isə bu fikirləri daha da qətiləşdirmişdi. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla sülh danışıqlarına dəstək üçün Qazaxıstan tərəfinə təşəkkür edib. O, bu barədə özünün "X" hesabında yazıb. "Azərbaycan-Ermənistan arasında Almatıda ikitərəfli sülh danışıqlarının təşkilində göstərdiyi son dərəcə dəyərli dəstək üçün Qazaxıstan tərəfinə, şəxsən Baş nazirin müavini, xarici işlər naziri Nurtleuya təşəkkür edirəm. Azərbaycan regionumuzda sabitlik və təhlükəsizliyi təmin etmək üçün, sülh prosesinin irəliləməsi üçün səylərini davam etdirəcək" - nazir Ceyhun Bayramovun paylaşımında belə deyilir.

## Azərbaycanın mövqeyi açıqdır...

İstər görüşdən öncə, istərsə də görüş zamanı səsləndirilən fikirlər hər iki tərəfin mövqeyinin sülh istiqamətində və problemin həllinə hədəfləndiyini göstərir. Aprelin 19-da ölkələrin müvafiq delimitasiya və demarkasiya komissiyalarının 8-ci görüşündə əldə edilmiş razılıqlar və prosesin bu müsbət impuls üzərindən davam etdirilməsi bəyan edilən mövqelərdə bu və ya digər şəkildə hiss olunur. Yeri gəlmişkən, aprelin 19-da əldə edilən razılığın detalları artıq həyata keçirilib. Almatıda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Azərbaycan və Ermənistan sərhədlərin delimitasiyası çərçivəsində müvafiq əraziləri birgə minalardan təmizləyib və coğrafi koordinatları dəqiqləşdirib. Onun sözlərinə görə, sərhədin Qazax rayonu hissəsində dirəklərin quraşdırılması demək olar ki, başa çatıb. O, həmçinin xatırladıb ki, Berlin görüşündən sonra tərəflər sülh sazişi layihəsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Bu kimi davranışlar bir daha təsdiq edir ki, Azərbaycan sülh gündəliyini dəstəkləyir - ölkəmizin sülh prosesi ilə bağlı mövqeyi bəlli və şəffafdır. Sülh danışıqları üçün baza prinsipi kimi irəli sürülən məsələlər, eyni zamanda, ötən ilin dekabrında və bu ilin aprelində əldə olunan razılıqlar iki dövlətin münasibətlərinin yaxınlaşmasında əsaslı rol oynamaq imkanındadır. Bu, həm qarşılıqlı etimadın yüksəlməsinə, həm də yeni reallıqlarda aradan qaldırılacaq problemlərin həllinə yaxından kömək olar.



Azərbaycan hər zaman bəyan edib ki, sülhün və təhlükəsizliyin davamlı olması üçün səy göstərir. İndiki halda - artıq iki dövlətin sərhədlərinə dirəklərin basdırılması faktı bu fikri daha real edir.

## Ermənistan sülhdə maraqlı olduğunu deyir...

Nəzərə alınmalıdır ki, İrəvanın məsələdəki səmimiyyəti vacib faktorlardandır. Bu ölkənin yürütdüyü siyasət, məsələlərə münasibəti regionda təhlükəsizlik arxitekturasının daha da gücləndirilməsinə töhfə verməyə istiqamətlənməlidir - başqa sözlə, Paşinyan hakimiyyətinin ortaya qoyacağı siyasi iradə sülhün imzalanmasını daha da tezləşdirə bilər. Almatı görüşündə rəsmi İrəvanın nümayiş etdirdiyi mövqe isə yeni ştrixlərdən xəbər verir. Belə ki, Ermənistan XİN rəhbəri səviyyəsində sülh müqaviləsi ilə bağlı real anonslar səsləndirir. Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Azərbaycan XİN rəhbəri ilə görüşdən əvvəl çıxışı zamanı bildirib ki, Almatı görüşü Azərbaycanla sülh müqaviləsinin razılaşdırılmasına yönəlib. Onun sözlərinə görə, tərəflər yalnız sülh müqaviləsi ilə kifayətlənmək istəmir. Belə ki, erməni nazir, eyni zamanda, regionda nəqliyyat kommunikasiyalarının bərpasının tərəfdarı olduqlarını vurğulayıb. Ararat Mirzoyan bildirib ki, ölkəsi danışıqlar prosesində çox konstruktiv şəkildə iştirak edir.

Qeyd edək ki, sülhün əsaslı formada təmin edilməsi istiqamətində real konstruktiv təkliflər Azərbaycan dövləti tərəfindən hələ 2022-ci ilin martında irəli sürülmüşdü. Məhz bu gün sülh gündəliyi olaraq irəli sürülən məsələlər bu paketdə açıq şəkildə öz təzahürünü tapır - Azərbaycanın sülh üzrə baza təklifləri həm BMT-nin təməl prinsiplərinə, həm də digər beynəlxalq qanunvericiliyə əsaslanırdı. Burada qarşılıqlı olaraq qəbul edilən sərhədlərin toxunulmazlığının tanınması, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi kimi məqamlar qeyd edilir. Ən əsası bu prinsiplərdə dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək kimi mühüm məqamlar yer alır - bundan başqa, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, o cümlədən, nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması da ikitərəfli münasibətlərin normallaşması üçün nəzərdə tutulan baza prinsipləri arasında yer alır. Kommunikasiyaların bərpası məsələsi hələ 2020-ci ildə Ermənistan ilə Azərbaycan arasında imzalanan Bəyanatda da öz əksini tapırdı.

Beləliklə, vasitəçisiz keçirilən Almatı görüşünün major notlarla müşayiət olunması bir daha onu göstərir ki, iki dövlət intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər. Bu, qarşıdakı dövrdə ölkələr arasında normal münasibətlərin qurulmasına da, sülh müqaviləsinin imzalanmasına da stimul verən amilə çevrilər.

**_P.İSMAYILOV_**

# İkitərəfli və çoxtərəfli əməkdaşlıq platforması...

## Azərbaycan və Bolqarıstan yeni iqtisadi gündəliklə Avropada inteqrasiyaya töhvə verir

Azərbaycan və Bolqarıstan arasında mehriban və dostluq münasibətləri son illərdə daha da genişlənərək əsil starteji tərəfdaşlığa yüksəlib. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri əlaələrin ruhunu və dinamikasını daha da möhkəmləndirib, yeni imkanlara yoil açıb. Bakıda olan Bolqarıstan  Prezidenti Rumen Radevin bəyan etdiyi kimi iki ölkə arasında qətiyyətli iqtisadi iradə və konkretləşmiş istiqamətlərin hər biri üzrə fəal addımların atılması iqtisadi hərarəti artırıb, iqtisadi perspektivlərin hərəkətliliyini daha da sürətləndirib. Bolqarıstanda Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən "Həmrəylik Halqası" layihəsi də məhz bu iqtisadi həmrəyliyin simvolu kimi xarakterizə oluna bilər.

Bolqarıstan ilk növbədə, Azərbaycanın yanacaq nəqlində əsas tərəfdaşlarından biridir. Cənub Qaz Dəhlizində yer almış və hazırda Avropa İttifaqının (Aİ) genişlənən yanacaq tədarükündə ilk sırada qərarlaşıb. Azərbaycanın enerji siyasətinin səmərəliliyini xüsusi dəyərləndirən rəsmi Sofiya öz enerji təhlükəsizliyinin bir hissəsini məhz Azərbaycana etibar edir. TAP istifadəyə verildikdən sonra əsas alıcılardan biri kimi Bolqarıstan Azərbaycandan daha çox yanacaq nəqli üçün təşəbbüsləri artırdı və hazırda bu ölkəyə qaz nəqlinin həcmi 1 milyard 250 milyon kubmetr təşkil edir. 2022-ci ildə bu rəqəm cəmi 600 milyon kubmetr idi. 2024-cü ilin sonunda isə 1,5 milyard kubmetr nəzərdə tutulur. Ancaq bu da Bolqarıstan üçün yetrəli deyil və Azərbaycan qazının daha çox idxalına üstünlük verilir.Cənab Radevin vurğuladığı kimi ölkəsi yanacaq təminatının təqribən 50 faizini Azərbaycan hesabına bağlasa da, bu rəqəmi 70 faizə qədər artırmaqda israrlıdır. Bu da yuxarıda da vurğuladığımız kimi Azərbaycanın enerji siyasətində əsl tərəfdaş və dostluq, humanizm mövqeyinə görədir.

Azərbaycan Panavropa qaz təchizatçısı kimi fəaliyyətini Avropa məkanında genişləndirir və enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz dəstəyini əsirgəmir. Bu siyasət rəsmi Sofiya üçün xüsusi strateji əhəmiyyət daşıyır, bu baxımdan enerjinin şaxələndirilməsində Azərbaycanın yürütdüyü iqtisadi diplomatiyanın uğurunu öz uğuru sayır, çünki bu starteji enerji kursu enerji həmrəyliyi platforması kimi digər iqtisadi proqramlara dərin zəmin yaradır.

Bolqarıstan, eyni zamanda, qaz nəqli istiqamətində önəmli tranzit ölkəyə çevrilibdir. Hazırda Azərbaycan qazı Bolqarıstan ərazisindən digər qonşu ölkələrə ixrac edilir və şübhəsiz ki, gələcəkdə bu ölkələrin sayı daha da artacaq. Yəni, bu, əməkdaşlıq qlobal enerji şaxəsinin coğrafiyasını artırır.

Hazırda Bolqrarıstanın yanacaq kompleksləri də birbaşa Azərbaycanın sayəsində yenidən qurulur. Sofiyada SOCAR-ın yanacaq məntəqələrinin fəaliyyəti və "Asarel Investment" ilə SOCAR arasında yeni sazişim imzalanması bu ölkənin enerji təhlükəsizliyinin bir seqmenti kimi Azərbaycana bağlı olmasının bir təzahürüdür.

Bolqarıstanın Azərbaycanla müasir iqtisadi əməkdaşlıq gündəmində "yaşıl enerji" tərəfdaşlığı da aktuallaşıb. Azərbaycanın son 2 ildə Aİ ölkələri ilə bərpa olunan enerji sahəsində yeniu cığır açması və 2022-ci ildə Rumen Radevin bəyan etdiyi kimi Azərbaycan Bolqarıstan üçün təkcə neft-qaz təchizatçısı deyil, eyni zamanda, "yaşıl enerji"




təchizatçısı kimi özünü etibarlı partyor və təchizatçı kimi yaxın dövlətdir. Azərbaycanın bərpa olunan enerjiyə keçiddə Avropa İttifaqı ölkələri ilə əməkdaşlığa dair imzaladığı sənədlərdə bolqar şirkətləri də yer alır. Azərbaycanın təşəbbüsü ilə "yaşıl enerji"nin əsas ixrac marşrutu olan yaradılmış "Xəzər-Qara dəniz-Avropa" dəhlizində də Sofiya özünü əsas strateji tərəfdaş kimi görür. 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanmış "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə əsasən, "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" və ya "Qara dəniz kabeli"nin əsası qoyulub və bu dəhlizin coğrafiyası böyüyür. Bolqarıstan həmin dəhlizdə yer almaqla Azərbaycanın külək və Günəş enerjisinin Avropaya nəqlində də tarnzit mövqe qazana bilər.

Bolqarıstan həm də Orta Dəhlizin iştirakçısı kimi Azərbaycanla bir platformada yer almaqdadır. Rəsmi Sofiya Bakı-Tbilsi-Qars qlobal nəqliyyat sisteminıə qoşulmaqla artıq Asiya və Avropa arasında vacib nəqliyyat bağlantısının üzvü sayıla bilər. Bu isə Orta Dəhlizdə Azərbaycan, Türkiyə, Gürcüstan, Bolqarıstan işbirliyi sayəsində ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın genişlənməsi fonunda qitələrarasında geoiqtisadi platformanı daha da möhkəmləndirəcək.

Bütün bu çoxşəbəkəli əməkdaşlıq arxitekturası Azərbaycan ilə Bolqarıstan arasında iqtisadi münasibətlərin və ticari dövriyyənin də artmasına töhfə verib. 2023-cü ildə tərəflər arasında mal dövriyyəsinin həcmi təxminən 400 milyon dollar olub. 2024-cü ilin ilk rübündə isə bu rəqəm daha da artaraq 153 milyon dollara çatıb. Bu isə o deməkdir ki, əmttə mübadiləsi ilin sonunda ən azı 600 milyon dollar olacaq.

İqtisadi əməkdaşlığın ən yaxşı səhifəsi iki ölkənin biznes icmaları arasında daim artan işgüzarlıqdır. Son illərdə hər iki tərəfin biznes nümayəndə heyətinin qarşılıqlı səfərləri, Biznes-forumlar və biznes qrupar arasında əldə edilən razılaşmalar iqtisadi layihələrin icrasını daha da genişləndirib. Bu baxımdan Bakıda keçirilən Biznes Forum işbirliyinin daha da möhkəmlənməsi və yeni birgə layihələrin həyata keçirilməsi üçün yaxşı zəmin yaradacaq. Yeri gəlmişkən, cənab R.Radevin səfəri çərçivəsində Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyası ilə Bolqarıstan Sənaye Kapitalı Assosiasiyası arasında imzalanmış Anlaşma Memorandumu iki ölkənin  biznes icması arasında investisiya layihələrində yeni imkanlar açmaq və biznes missiyaların təşkili baxımından çox faydalıdır.

Bolqarıstan Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan investisiya layihələrinə də qoşulmaqda maraqlıdır. Azərbaycanın qədim mədəniyyət paytaxtı olan Şuşa və Bolqarıstanın Veliko-Tırnovo arasında əlaqələrin qurulması qardaşlıq simvolu olmaqla yanaşı, gələcəkdə bolqar şirkətlərinin Qarabağda iqtisadi proqramlarda təmsil olunması üçün açar rolunu oynayacaq.

Beləliklə, Rumen Radevin Azərbaycana səfəri iki ölkə arasında yeni iqtisadi gündəlik yaratmaqla çoxşaxəli iqtisadi panoramanı daha da genişləndirəck. Eləcə də tərəflər arasında imzalanmış Strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə isə gələcək iqtisadi əməkdaşlığın Yol xəritəsi hesab oluna bilər.

**_E.CƏFƏRLİ_**

# Fransızların inamı ölüb...

## Avropada qarşılıqlı etimad yox səviyyəsindədir

Avropa kontingentinin "dünya hegemoniyası" traktatının reallaşması üçün tramplin rolunu oynamış I Sənaye İnqilabından ötən üç əsr "köhnə qitə"ni həm də "arzuların ünvanı" kimi səciyyələndirmişdi. Son 300 ildə əksəriyyət Avropaya "təhlükəsizlik, rahatlıq və zənginlik" dəyərləndirməsi ilə yanaşırdı. Hətta bir neçə il öncəyə qədər dünyanın əksər regionlarında aparılan sorğularda ən təhlükəsiz bölgə kimi Avropa, xüsusilə Qərbi Avropa dəyərləndirilirdi ki, bu ünvanın yaşam şərtləri olduqca cəlbedici görünürdü. İkinci, hətta üçüncü dərəcəli sayılan ölkələrdən Avropaya axının səbəbləri sadalanarkən də bu amil xüsusilə qabardılırdı - Avropa rahatlığı, Avropa etimadı, Avropa "hüquq proyeksiyası". Bu "rahatlığın" bir səbəbi sosial rifahın yüksəkliyi idisə, digər səbəb kimi "qoca qitə"nin insan hüquq və azadlıqlarının "təşəkkül nöqtəsi" sayılması idi. Belə bir təsəvvür vardı - bu qitədə hər şey beynəlxalq hüquqa əsaslanır və hər kəs xoşbəxtdir.

Amma əsl reallıq tamam fərqli ştrixlərə söykənən mənzərədə özünə yer tapır. Başqa sözlə, Avropa heç də "arzuların qitəsi" deyil - xüsusilə, bu qitədə yaşayan insanların qarşılıqlı olaraq etimad mühiti ən aşağı səviyyədədir. Avropanı özündə birləşdirən beynəlxalq statuslu təsisatların ikili standartlara əsaslanan qərar və fikirləri, addımları, yanaşmaları sadə insanlarda inamsızlığın get-gedə artması üçün stimula çevrilir. Xüsusilə, Avropa İttifaqı adlanan "birliyin" xidmət etdiyi korporativ maraqların konturları bəlli olduqca hər kəsin fikri dəyişir - təsadüfi deyil ki, hətta Aİ-nin fərqli strukturlarında təmsil olunan parlamentarilər, Aİ üzvü olan dövlətlərin siyasi rəhbərləri qurumun ikili standarta əsaslanan siyasi xəttini ifşa edir, bu qurumda baş alıb gedən korrupsiya faktlarını, qeyri-hüquqi əsaslı qərarların alınması presedentlərini, maliyyə maxinasiyalarını konkret sənədlərlə və misallarla üzə çıxarırlar. Bu isə, Avropa insanının ilk növbədə yaşadığı ölkənin rəhbərlərinin Aİ-yə "əsas idarəedici funksioner" kimi baxdığı üçün inamını öldürür, eyni zamanda, qurumun demokratik təsisat olaraq onun həyatında oynadığı rola inamını azaldır. Bu faktlarla sübuta yetirilir...

## Daha fəxr etmirlər...

Məsələn, Fransızların yarısı Avropa İttifaqı ilə bağlı narahatdırlar, hətta 16 faizi qəzəblidir. Bu barədə Fransa İctimai Rəy İnstitutunun (İFOP) "Ouest France"ın sifarişi ilə apardığı sosial sorğunun nəticələrində qeyd edilib. Avropa seçkilərinə cəmi bir ay qaldığı vaxtda fransızların Avropa İttifaqı ilə bağlı daha çox mənfi fikirdə olduğu müəyyənləşib. Fransızların yalnız dörddən biri Avropa ilə bağlı müsbət fikir ifadə edib. Sosial sorğunun nəticələrinə görə, təqaüdçülər (50 faiz) və ticarətçilər (53 faiz) daha çox narahatçılıqlarını bildiriblər. Qəzəb və narahatlıq hissi respondentlərin yaşından asılı olaraq çox dəyişir. 18-24 yaşlı gənclərin yalnız dörddə biri (26 faiz) narahat olduğunu deyir, 65 və daha yuxarı yaşda olanlar üçün bu rəqəm 50 faizə yüksəlib. Avropalı olduqları ilə fəxr edən fransızların sayı əvvəlki illərlə müqayisədə azalıb. Val dö Luar, Normandiya və Korsikadan olan əhalinin üçdən biri (30 faiz) avropalı olduqları ilə heç vaxt fəxr etmədiklərini qeyd ediblər. Avropa quruculuğunun Fransa üçün müsbət təsirləri olacağına inanan fransızların da sayı əvvəlki illərlə müqayisədə kifayət qədər azalıb. Sənətkarların və ticarətçilərin yarıdan çoxu (53 faiz) və işçilərin (51 faiz) Avropa İttifaqına mənsub olduqları üçün fəxr etmədiklərini bildiriblər.

Hətta avropalı olmaqdan qürur duyan fransızlar arasında narahatlıq hissi 43 faiz təşkil edib. Nəhayət, fransızların ən yaxın hiss etdikləri ölkələr İspaniya (24 faiz), Almaniya (23 faiz), Belçika (18 faiz) və İtaliyadır (14 faiz), bütün digər ölkələr 3 faiz və ya daha azdır.

## Avropa niyə bu günə düşdü?

Bəli - "köhnə qitə"nin əsas baza gücü sayılan sənətkarların və ticarətçilərin Avropa İttifaqına mənsub olduqları üçün fəxr etmədikləri artıq real faktdır. Çünki ortada fəxr ediləsi bir hal yoxdur. Aİ ilə bağlı məsələ açıq və mübahisəsizdir:

- Qurum daxilində korrupsiya faktları son bir ildə daha da intensivləşib;
- Verilən siyasi qərarlar kontingentin deyil, fərqli güclərin maraqlarına xidmət edir;
- Siyasi qərarlarda qərəzlilik miqdarı getdikcə artır;
- İqtisadi asılılığı ildən-ilə artan Avropanın xilası üçün heç bir konseptual addım atılmır, tam əksinə, iqtisadi asılılığın daha da yüksəldilməsi xətti açıq-aydın hiss edilir;
- Son 3 ildə Mərkəzi Avropada baş verənlər qitənin fors-major situasiyalara hazır olmadığını, söylənilənlərin yalnız quru pafosa söykənən sözdən ibarət olduğunu ortaya çıxardı;
- Enerji təhlükəsizliyinin təmini məsələsi "qoca qitə"nin ən zəif nöqtəsi kimi ortya çıxdı.

Bəli, bu kimi məqamlar Avropanın tam və oturuşmuş siyasi-iqtisadi mərkəz kimi çıxış etməsinə imkan vermir. Hətta bəzi hallarda "beynəlxalq" statuslu məhkəmələri, qətnamələr qəbul edərək siyasi qərarlar verən qurumları belə fərqli lobbilərin ucuz təsirinə uduzan Avropa məkanı günü-gündən simasını itirir. Bu fakt uzaqdan daha aydın görünürdü - fransızların sorğusu, problemlərin içdən də hiss edildiyini təsdiqlədi.

## Aİ-nin bu vəziyyətə düşməsində Fransa amili...

Avropanın ildən-ilə geriləməsinin səbəbləri sadalamaqla bitməz. Burada ayrı-ayrı dövlətlərin oynadığı rol da önəmlidir. Məsələn, Aİ-nin verdiyi qərarları özünün lokal maraqlarına uydurmağa çalışan ölkələr var - onların bu addımları da qurumun qeyri-demokratik "imicini" artıran halları dəstəkləyir. Elə götürək xalqı Avropa İttifaqına inamını itirdiyini deyən Fransaya - bu ölkə son 4 ildə Azərbaycana qarşı olmazın şər-böhtan kampaniyaları təşkil edir və bu addımlarını məhz Aİ, AŞPA kimi qurumların "qətnamələri" ilə möhkəmləndirməyə çalışır. Fransa Senatının, Milli Assambleyasının son illərdə Cənubi Qafqaza yönəlik bütün sənəd və qərarları separatizmin açıq dəstəklənməsinə, erməni lobbisinin maraqlarının təmininə hədəflənib. Makron hakimiyyəti bütün beynəlxalq müstəvilərdə Azərbaycana qarşı açıq müharibə və düşmənçilik aparıb.

Eyni zamanda, Avropa İttifaqının "aparıcı dövləti" statusu qazanmaq üçün Paris min bir oyun oynayıb - hətta öz yaxınında olan dövlətləri belə erməni lobbisinin yalanlarının əsirinə çevirməyə çalışıb. Bəzi hallarda bu baş tutub - bəzi hallarda isə bu ölkələr fransız oyununda iştirak etməyib. Beləliklə, Aİ-nin fərqli maraqların əlində alətə çevrilməsində Fransa amilini də inkar etmək olmaz. Bu baxımdan Aİ-nin hazırki qeyri-demokratik imicinin formalaşmasında Fransanın "xidməti" olduqca böyükdür...

**_P.İSMAYILOV_**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**

# Vətəndaş cəmiyyətin inkişafı...

## Hər ölkənin tərəqqisi üçün vacib şərtdir!

*Y.SAHİB*

Cəmiyyətimizin hazırkı inkişaf mərhələsində ictimai həyatın bütün sferalarında baş verən köklü dəyişikliklər onların siyasi praktikada nəzərə alınmasını tələb edir. Yeni demokratik siyasi sistemin formalaşmasında milli prioritetlərin reallaşdırılması siyasi institutların, xüsusilə, vətəndaş cəmiyyətinin maraq və tələbatının rasional və optimal həyata keçirilməsi sosial siyasətin əsas yönümlərindən birinə çevrilir. Demokratik rejimin ən əhəmiyyətli təminatı, şərti və eləcə də nəticəsi vətəndaş cəmiyyətinin və hüquqi dövlətin qurulmasıdır.

Hüquqi dövlət anlayışı və vətəndaş cəmiyyəti bir çox birləşdirici və hər ikisinin ümumi prinsiplərinə malikdir. Bu göstəricilər də əsasən hamı üçün çox önəmli əsasları özündə birləşdirir. Bütün bunlar həm qlobal, həm də milli və regional ölçülərdə vətəndaş cəmiyyətinin öyrənilməsini tələb edir, eləcə də dövlətin bu institutlarla bağlı siyasətinin, onun formalaşmasının və həyata keçirilməsi mexaizmlərinin kompleks olaraq cəm şəkildə araşdırılmasını aktuallaşdırır. Azərbaycanda vətəndaş cəmiyyətinin təkmilləşməsi özünəməxsus fərqləndirici xüsusiyyətlər daşıyır. Bu təkmilləşmə prosesində nə qədər Qərbin beynəlxalq modeli əsas götürülsə də, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda respublikamızın milli spesifikası da özünü göstərir...

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən Konstitusiya Araşdırmalar Fondunun rəhbəri, hüquq müdafiəçisi Əlimәmməd Nuriyev bildirib ki, vətəndaş cəmiyyəti özünüidarə və özünütənzimləmə mexanizminə malik olan, mülki şəxslərin könüllü birləşməsi nəticəsində yaranan qeyri-siyasi ictimai birlikdir: "Hazırkı qloballaşan dünyada baş verən müxtəlif hadisələrin dünya siyasətinin əsas gündəliyinə çıxarılmasında, bu hadisələrin təkmilləşməsində və onlar ətrafında ictimai fikrin yaradılmasında vətəndaş cəmiyyətinin təsir gücünün müəyyənləşdirilməsi gün keçdikcə aktuallıq kəsb edir. Demokratik cəmiyyətdə başlıca siyasi institut olmaq etibarilə dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətinin tənzimlənməsi məsələsinin sistemli, kompleks öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Vətəndaş cəmiyyətinin konseptual səviyyədə müəyyənləşdirilməsi, onun hüquqi bazasının yaradılması həyati zərurətdir. Fərqli coğrafiyalarda vətəndaş cəmiyyəti institutlarının fərqli modelləri, qanunvericilik prosesi, onların bu prosesin subyektinə çevrilməsini şərtləndirən səbəb və amillər vətəndaş cəmiyyətini təşkil edən qrupların maraqlarının təşəkkülü mənbəyini üzə çıxarır. Siyasi institutların vətəndaş cəmiyyəti ilə əlaqəsi və qarşılıqlı münasibəti mövcud problemin elmi əsaslarla öyrənilməsinə ciddi tələbat yaradır".




Hüquq müdafiəçisi bildirib ki, müasir dövrün ictimai təsisatları olaraq, qeyri-hökumət təşkilatları hüquqi dövlət quruculuğu, ictimai-siyasi həyatın demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, cəmiyyətdə harmonik və sabit inkişafın təmin edilməsində əhəmiyyətli rol oynayırlar: "Ümummilli lider Heydər Əliyev bildirmişdi ki, əgər hər hansı bir ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirlərsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur. Vətəndaş cəmiyyətinin aparıcı qüvvəsi kimi, qeyri-hökumət təşkilatları üçüncü sektorun, ümumilikdə, cəmiyyətin sosial-iqtisadi inkişafının ən müxtəlif istiqamətlərinə, sülh və təhlükəsizliyin, dinc birgəyaşayışın təmin olunmasına, bəşəriyyəti narahat edən problemlərin həllinə böyük töhfə verirlər.

Ulu öndərin əsasını qoyduğu azərbaycançılıq fəlsəfəsi milli dövlətçilik ideyamızın əsasını özündə cəmləyib, bu sahədə qanunlar hazırlanıb, hüquqi islahatlar həyata keçirilib. Heydər Əliyevin bu sahədə gördüyü arasıkəsilməz işlərin nəticəsində dövlətimiz üçün çox uzun zamandır ciddi məsələ olaraq gündəmə gələn milli dövlətçilik problemi elmdən çıxaraq praktik olaraq həyata keçirilməyə başladı. Sözsüz ki, cəmiyyətin tələbatını ödəyən siyasi quruluşu, tam formalaşmış ictimai-siyasi institutları olan güclü dövlətdə vətəndaşların rifahının, hüquq və azadlıqlarının təmin olunması mümkündür. Bütün bunları gözü qarşısına alan Heydər Əliyev dövlət quruculuğunun özəyində duran ictimai-siyasi instituta böyük diqqət yetirirdi. Xüsusilə də 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hamılıqla səs verərək qəbul edilməsinin ən mühüm xüsusiyyətlərindən biri də respublikamızda demokratik dövlət və vətəndaş cəmiyyəti formalaşdırılmasının prioritet olaraq vacib sahəyə çevrilməsidir".

Ə.Nuriyev qeyd edib ki, Azərbaycanda yeni, dinamik, iqtisadi və demokratik siyasi sistemin formalaşması, qloballaşma dövrünün tələblərinə cavab verən iqtisadi və siyasi xəttin işlənib hazırlanması və həyata keçirilməsi, sivil cəmiyyət quruculuğu istiqamətində uğurlu cəhdlər respublikamızın sabit, davamlı inkişafına, mənəvi dəyərlərin zənginləşməsinə, vətəndaş həmrəyliyinə əlverişli şərait yaradıb: "Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması və inkişafı prosesi əlverişli şəraitdə təzahür edir. Cəmiyyətimizdə ictimai həyatın bütün sferaları transformasiyaya məruz qalır, bu qanunauyğun prosesdə köhnə sosial və siyasi təsisatlar yeniləri ilə əvəzlənir. Belə dəyişiklikdən kənarda vətəndaş cəmiyyətinin formalaşması, yeni pozitiv sosial-siyasi dəyişikliklər prosesinin uğurla, səmərəli başa çatması qeyri-mümkündür".

## Mehralı Məhərrəmov -80



Dünən Məhərrəmov Mehralı Məhərrəm oğlunun 80 yaşı tamam olub. Bu münasibətlə dostları, ailə üzvləri və nəvələri təbrik ediblər.

Yaşadığı 80 illik ömründə daim xeyirxah əməlləri ilə ətrafında olan bütün insanların məhəbbətini qazanıb. O, ehtiyacı olan insanlara mənəvi dəstək olub.

M.Məhərrəmov Ulu Öndərin ideyalarına daim bağlı olan, Prezidentimizə və dövlətimizə sədaqətli bir vətənpərvər şəxs kimi tanınır. Təsadüfi deyil ki, o, çətin zamanlarda qətiyyətli və riskli mövqe göstərərək birmənalı şəkildə Ulu Öndəri dəstəkləyib.

Qeyd edək ki, gözəl ailə başçısı, mərd və səmimi insan kimi tanınan M.Məhərrəmovun 3 övladı, 6 nəvəsi var. O, hər zaman həyat yoldaşı Bəsti xanımla birlikdə zəhmətkeşlik və insanlıq nümunəsi olub...

Babalarını 80 illik yubileyi münasibətilə təbrik edən nəvələri İsmayıl və Rəvan Rəsulzadələr ona 100 yaşamağı və yubileyini Şuşada qeyd etməyi arzulayıblar.

# Şəfalı əllər...

*Yeganə BAYRAMOVA*

Səhhətimizdə kiçik bir narahatlıq hiss etdikdə belə sağlamlığın həyatımızda böyük önəm daşıdığının fərqinə varırıq. Bu zaman sahib olduğu peşəni ləyaqətlə yerinə yetirən tibb işçilərinin nə qədər ülvi, müqəddəs və şərəfli işi öz öhdələrinə götürmələrini təxmin etmək o qədər də çətin deyil. Şəfalı əllərinə ehtiyac duyduğumuz bu ali sənət sahiblərinə nə qədər təşəkkür etsək, yenə də azdır. Çünki hər birimizin yarasına məlhəm, ağrısına dözüm, dərdinə şəfa verən onlardır.

Xəstə ilə ünsiyyət, iynə vurmaq, təzyiqi yoxlamaq və digər işlər tibb bacılarının öhdəsinə düşür. Onu da xatırlatmağa dəyər ki, koronavirus infeksiyasına qarşı aparılan mübarizədə bütün dünyada tibbi bacıları təcrübə və peşəkarlıqları, özlərinin ən üstün şəxsi keyfiyyətləri və qətiyyətləri ilə yaxından iştirak ediblər.

Xatırladaq ki, ilk azərbaycanlı şəfqət bacısı General Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Şıxlinskaya olub. O, Birinci Dünya müharibəsi başlayanda yaralı əsgərlərə tibbi yardım üçün yaradılan Qırmızı Xaç Cəmiyyətinin sədri seçilib.

...Arəstə Baxışova adı hamınıza tanış gəlir. Bəli, arxa cəbhənin ölməz qəhrəmanı olan Arəstə də bu peşəni sevərək icra edənlərdən idi. Təəssüf ki, İkinci Qarabağ müharibəsində şəhid oldu. Ancaq adını Azərbaycanın həm qanlı, həm şanlı səhivələrinə yazaraq köçdü bu dünyadan. O, bir çox yaralı əsgər və zabitlərimizi döyüş meydanından çıxarıb və onlara tibbi xidmət göstərərək ölümün pəncəsindən xilas edib. Oktyabrın 23-də Qubadlı uğrunda gedən gərgin döyüşlər zamanı yaralı əsgərlərimizi döyüş meydanından çıxaran zaman güllə yarası alıb. Ömrünün otuz birinci baharında Vətən uğrunda qəhrəmancasına şəhid olub. Ölümündən sonra tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan "Florence Nightingale" medalı ilə təltif edilib.

Yeri gəlmişkən, sabah Beynəlxalq Tibb Bacısı Günü kimi qeyd olunur. Başqa sözlə desək, bu gün nəcib əməllərinə görə humanist peşə sahiblərinə təşəkkür etməyə dəyər.

İlkin tibbi təhsil almış şəfqət bacıları müalicə müddətində xəstələrlə ən çox ünsiyyətdə olan, həkim və ya feldşerin göstərişlərini yerinə yetirən peşə sahibləridir. Hazırda tibb bacıları səhiyyə işçiləri arasında sayca çoxluq təşkil edirlər. Xəstələrin sağalıb şəfa tapması və normal həyata qayıtmağında həkim göstərişlərini yerinə yetirən xidmət işçisi kimi onun üzərinə böyük vəzifə düşür.

Qeyd edək ki, Beynəlxalq Tibb Bacısı Günü Krım müharibəsi zamanı (1853-1856) ilk dəfə şəfqət bacısı xidməti təşkil edən məşhur ingilis Florens Haytingelin ad günü şərəfinə təşkil edilib. O, 1820-ci ildə İtaliyanın Florensiya şəhərində zəngin ingilis ailəsində dünyaya gəlib. Valideynləri onu doğulduğu şəhərin adına uyğun olaraq Florens adlandırıblar. İyirmi yaşında ikən cəmiyyət üçün yararlı bir şəxs olmaq arzusunu ifadə edən gənc qız gündəliyində belə bir qeyd yazıb: "Tanrı mənimlə danışdı və məni xidmətinə çağırdı. İnsanlara xidmət etməyin ən doğru yolunun tibb bacısı olmaqdan keçdiyinə qərar verdim".




*İdman*

## Baş Prokurorluğun futbol komandası Ulu Öndərin xatirəsinə həsr olunmuş turnirdə Fair-Play mükafatına layiq görülüb

Baş Prokurorluğun futbol komandası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında II minifutbol turnirində final mərhələsinə yüksəlib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, kollektiv nümunəvi davranış göstərdiyinə, dürüst oyun nümayiş etdirdiyinə və futbol etikası qaydalarına riayət edərək rəqib komandaların üzvlərinə hörmətlə yanaşdığına görə turnirin "Ən yaxşı Fair-Play" komandası seçilib.

Bu səbəbdən Baş Prokurorluğun futbol komandasına "Ən yaxşı Fair-Play" mükafatı təqdim edilib.




## Azərbaycan sambo millisi 8 ildən sonra Avropa çempionatında qızıl medal qazanıb

Sambo üzrə Azərbaycan millisi Serbiyanın Novi Sad şəhərində keçirilən Avropa çempionatını 3 medalla tamamlayıb.

Azərbaycan Sambo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yığma qitə yarışında 1 qızıl və 2 bürünc medal qazanıb.

2022-ci il dünya çempionatının mükafatçısı Elvin Bağırov (64 kiloqram) finalda Narek Dallakyana (Ermənistan) 5:0 hesabı ilə qalib gələrək ilk dəfə böyüklərdə Avropa çempionu olub. Sonuncu dəfə böyüklər arasında Avropa çempionu ünvanına 8 il öncə Amil Qasımov çıxmışdı. O, 2016-cı ildə Rusiyanın Kazan şəhərində keçirilən yarışda qitənin ən güclüsü olmuşdu.

Həmçinin Rəsul Aydəmirov (98 kiloqram) və Nicat Məmmədli (58 kiloqram) 3-cülük uğrunda görüşdə qalib gələrək bürünc medal əldə edib.

Qeyd edək ki, yarış mayın 11-12-də gənclər və yeniyetmələrin Avropa çempionatı ilə davam edəcək.




# Erməni kilsəsi, yoxsa "fransız kölgəsi"?

## Gücsüz etirazçılar kürsü davası aparır

Cənubi Qafqazda sülhün aktuallaşdığı bir zamanda Ermənistan daxilində bəzi qüvvələr prosesə mane olmaq üçün səfərbər ediliblər. Xəbər verildiyi kimi, Azərbaycan ilə Ermənistan arasında delimitasiyanın başlaması ilə bağlı aprelin 19-da əldə edilmiş razılığa əsasən Tavuş ərazisində ərazilərin müəyyənləşməsi prosesinə qarşı etiraz aksiyası başlanılıb. Mayın 4-də İrəvana yürüş başlayıb. Mayın 9-da Respublika meydanında "Baqrat hərəkatı" adlandırılan aksiyanın lideri arxiyepiskop Qalstanyan baş nazir Nikol Paşinyanın impiçment prosesinin başlandığını elan edib. Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın mayın 9-u axşamı mitinqçiləri evlərinə getməyi təklif edib və mayın 10-da səhər saatlarından etibarən yenidən İrəvan küçələrində etiraz edəcəklərini bildirib.



Dünən mayın 10-da isə arxiyepiskop Qalstanyan tələbələri kütləvi tətillərə başlamağa çağırıb. Qeyd edək ki, İrəvan Dövlət Universitetinin bir qrup tələbəsi də etiraz aksiyası ilə bağlı tətilə başlayıb. Onlar müxtəlif fakültələrə gedib "Tələbələr ayağa qalx" qışqıraraq tələbələri tətilə qoşulmağa çağırıblar. Tələbələr qarşısında çıxış edən keşiş Baqrat Qalstanyan 1988-ci ildə baş verənləri xatırladıb.

Bu arada baş nazir Paşinyanın impiçmenti ilə bağlı məsələnin reallaşma ehtimalı olduqca aşağıdır - o baxımdan ki, müxalifət həm impiçment proseduruna başlamaq, həm də onu uğurla həyata keçirmək üçün kifayət qədər səsə malik deyil. Ermənistan mətbuatının məlumatına görə, impiçmentin reallaşması üçün müxalifətin "Hayastan" və "Şərəfim var" fraksiyalarının deputatları ilə fəal müzakirələr aparılır. Lakin bu ideyanı həyata keçirmək üçün müxalifətin kifayət qədər səsi yoxdur. Ermənistan qanunvericiliyinə görə, impiçment proseduruna başlamaq üçün 36 deputatın və ya parlamentarilərin ümumi sayının üçdə birinin imzasını toplamaq lazımdır. Müxalifətin isə ümumilikdə, 35 deputatı var - hətta prosesi başlamaq üçün onlara daha 1 səs lazımdır. Nəzəri cəhətdən bunu müstəqil deputatların köməyi ilə reallaşdıra bilsələr belə sonradan səsvermədə çoxluğu əldə etmək daha çətin görünür. "Şərəfim var" katibi Tiqran Abramyanın jurnalistlərə açıqlamasına görə, bu məsələ ilə bağlı heç bir müzakirə aparılmayıb.

"Hayastan" blokundan olan deputat Artur Xaçatryan isə bildirib ki, prosedura başlamaq üçün müxalifət baş nazirliyə namizədini təqdim etməlidir. Müvafiq forma alındıqdan sonra isə 24 saat ərzində tələb olunan 36 imza toplanmalı, daha sonra 48-72 saat ərzində impiçmentlə bağlı səsvermə keçirilməlidir. Vurğulandığı kimi, səsvermənin nəticəsi Paşinyanın xeyrinə görünür - impiçment üçün ən azı 54 səs lazımdır ki, müxalifət bunu reallaşdırmaq üçün minimum ətrafına 18 deputat daha əlavə etməlidir. İrəvanın ayrı-ayrı küçələrində baş tutan aksiyalar isə davam etdirilib. Mərkəzləşdirilmiş mitinq Respublika meydanına axşam saatlarına təyin edilib.

Bu arada etirazçıların baş nazir namizədi haqda məlumat verilmir - bununla belə, erməni mətbuatı əsasən iki şəxsin üzərində dayanır. Bunun biri keçmiş prezident Robert Köçəryan, digəri isə keçmiş Ombudsman Arman Totayandır. Bütün bu qarışıqlığın başında dayanan kilsə isə bu "namizədlərin" heç birini dəstəkləmək fikrində görünmür - yayılan məlumatlarda erməni Qriqoryan Kilsəsinin başçısı Qareginin hazırkı proseslərin əsas aparıcı siması Baqrat Qalstanyanın namizəd olmasını istəyir. Beləliklə, yaradılan bu qarışıqlıqdan hər bir "düşərgə" öz xeyri üçün istifadə etmək arzusundadır.

Siyasi mütəxəssislər isə Ermənistanda baş verənləri xarici təsirlərin proyeksiyası kimi dəyərləndirir. Xüsusilə, Azərbaycanla vasitəçisiz görüşlərin keçirilməsi perspektivi dövründə bu kimi etirazların formalaşdırılması prosesə açıq mane olmaq istəyindən doğur. Siyasi analitiklər daha çox Qərb "əlini" bu işin səbəbkarı kimi vurğulayır. O baxımdan ki, revanşist siyasi müxalifət hələlik ikinci plandadır - öndə olan isə Fransanın siyasi xəttinə sadiqlik nümayiş etdirən kilsədir. Bu nöqteyi nəzərdən etiraz aksiyalarının məhz qərb dairələri tərəfindən "stimullaşdırılması" real görünür.

Xalqın mütləq əksəriyyəti isə regiona sülhün gəlməsini dəstəkləyir. Sosial şəbəkə seqmentlərində çıxış edən ermənilər baş verənləri növbəti siyasi ssenari adlandırıblar. Onların fikrincə, Ermənistanın müstəqil dövlət kimi ayağa qalxmasını istəməyən qüvvələr "kilsə etirazlarının" rüşeymini təşkil edir. Ermənilər iddia edirlər ki, Paşinyanın öz sərhədləri daxilində dövlət qurmaq arzusu onlar üçün daha yaxşı gələcək vəd edir.

*SADİQ*


Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5652
Sifariş: 1036
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova